

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 sentyabr
2024-cü il,
cümə
№ 172 (6758)
Qiyməti
60 qəpik


# Əsrin müqaviləsi - Əsrin mübarizəsi



## Heydər Əliyev bizi bu mübarizədən qalib çıxardı

Bax səh. 2

## Prezident Qarabağda...

Bax səh. 2



## Ali missiyamızın tamamlandığı tarix!

### Suverenlik Günü dünənimizin təsdiqi, bu günümüzün qüruru, sabahımızın ümididir...

Bax səh. 3

## 4 şəhərin bir günü...

Bax səh. 4

## Bakı və Bağdad yeni iqtisadi hədəflər müəyyən edib

Bax səh. 5

## Qafqazın əsiri... Qərbin yeni taktikası: Ermənistan hansı parametrlər üzrə seçilib?

Bax səh. 6

## Vətən müharibəsinə 7 gün qalırdı...

2020-ci il sentyabrın 20-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ermənistanın Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## 23 ölkədən 80-dən çox alim...

Bax səh. 5

## İcma: tarixin bu ağrılı səhifəsinin ləyaqətlə bağlanması üçün...

Bax səh. 4

## Yeni Kaledoniyada insanlıq faciəsi

Bax səh. 6

## Pandemiyadan sonra ilk dəfə...



Bax səh. 7

## Avropa təsisatları nədən narahatdır?




Bax səh. 5

# Prezident Qarabağda...



















**Ağdamda...**

**Eyvazxanbəyli kəndinin təməli qoyulub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 19-da Ağdam rayonunun Eyvazxanbəyli kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verib.

Kəndin layihələndirilən ümumi ərazisi 300 hektara yaxındır. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Şişpapaqlar, Kosalar və Eyvazxanbəyli kəndləri ilə birlikdə layihələndirilib.

Eyvazxanbəyli kəndində 4038 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Bu məqsədlə 1091 fərdi evin tikilməsi nəzərdə tutulub.

Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 88,3 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1563 nəfərin köçürülməsi üçün 427 fərdi evin inşası planlaşdırılır. İnşa ediləcək evlər iki, üç, dörd və beşotaqlı olacaq.

Kənddə məktəb binası, uşaq bağçası, inzibati bina, bayraq meydanı, tibb məntəqəsi, digər xidməti obyektlərin tikintisi və istirahət parkının salınması planlaşdırılıb. Əhalinin məşğulluğunun təmin edilməsi üçün zəruri tədbirlər də görüləcək.

Prezident İlham Əliyev Eyvazxanbəyli kəndinin təməlini qoyub.

**Kəngərli kəndində aparılan bərpa işləri ilə tanışlıq**

Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam rayonunun Kəngərli kəndində aparılan bərpa işləri ilə tanış olub.

Kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Ağdam şəhərindən 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində 2544 nəfərin (632 ailə) məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşdırılacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 292 fərdi ev inşa edilir.

Kəndin ərazisində söküntü və şaquli planlaşdırma işləri artıq tamamlanıb. Bundan başqa, 292 fərdi evin torpaq, bünövrə, hörgü işləri və 278 fərdi evin isə xarici tamamlama işləri başa çatdırılıb.

**Ağdam Sənaye Parkında görülən işlərlə tanışlıq, yeni zavodların açılışları**

Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam Sənaye Parkında görülən işlərlə tanış olub, yeni zavodların açılış mərasimlərində iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sənaye parkında görülən işlər barədə məlumat verib.

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam Sənaye Parkı dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Dövlətimizin başçısı sənaye parkında "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodunun "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodunun, Ağdam Sənaye Parkının rezidentlərindən biri olan "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodunun, "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) divar kağızları istehsalı zavodunun, Ağdam Sənaye Parkında, həmçinin "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun, parkın rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) dam örtükləri istehsalı zavodunun açılışında iştirak edib.

**İmarət Kompleksinin bərpadan sonra açılışında...**

Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində İmarət Kompleksinin bərpadan sonra açılışında iştirak edib.

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, dövlət başçımızın tapşırığına uyğun olaraq, 2023-cü ildə Ağdam İmarət Kompleksində yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılıb. Ərazisi 3,3 hektar olan kompleks mərasimlərin keçirilməsi üçün nəzərdə tutulmuş tikililər, türbələr, tarixi qəbiristanlıq, Qarabağ atlarının tədqimatı üçün atçılıq kompleksi və ziyarətçi mərkəzindən ibarətdir.

Kompleksdə yaradılan Qarabağ atları parkında qədim dövrlərdən şöhrəti dünyanı dolaşan Azərbaycanın Qarabağ atlarının auksionunun keçirilməsi, eyni zamanda, parkda müxtəlif vaxtlarda bu atların iştirakı ilə təlim və şou-proqramların təşkili nəzərdə tutulur.

Dövlətimizin başçısı Qarabağ atlarına baxıb.

Prezident İlham Əliyev kompleksin ərazisində ağac əkib

**"Aghdam City Hotel"in açılışında**

Sonra dövlətimizin başçısı Ağdam şəhərində "Aghdam City Hotel"in açılışında iştirak edib.

"Oskad" şirkətinin İdarə Heyətinin sədri Oğuz Kadıoğlu dövlətimizin başçısına hoteldə yaradılan şərait barədə məlumat verib.

"City Hotel" Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub. Hotelin binası 5 mərtəbədən ibarətdir. Ən müasir standartlara cavab verən hotelin binasında 130 otaq vardır.

**"İmarət" stadionunun təməli qoyulub**

Prezident İlham Əliyev sentyabrın 19-da Ağdam şəhərində "İmarət" stadionunun təməlini qoyub.

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına stadionda yaradılacaq şərait barədə məlumat verib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq inşa ediləcək stadion üçün 19,2 hektar torpaq sahəsi ayrılıb.

"İmarət" stadionunun UEFA-nın 4-cü kateqoriya tələblərinə uyğun inşa edilməsi nəzərdə tutulub. 11 min 700 nəfərlik tamaşaçı tutumuna malik stadionun oyun meydançası təbii ot örtüyünə malik olacaq.

**Xıdırlı kəndi abadlaşır**

Səfər çərçivəsində dövlətimizin başçısı Ağdam rayonunun Xıdırlı kəndində görülən bərpa işləri ilə tanış olub.

Qeyd edək ki, kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5093 nəfərin məskunlaşdırılması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşdırılacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 170 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır.

**Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanışlıq**

Prezident İlham Əliyev Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunda görülən işlərlə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2024-cü il 13 yanvar tarixli Sərəncamı ilə Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun yenidən qurulması işləri sürətlə davam etdirilir.

Uzunluğu 33,6 kilometr olan yolda 5 körpünün, 2 keçidin, suötürücü boruların tikintisi və digər infrastruktur işləri görülür. Yol bölgədə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatının, turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək.

Avtomobil yolu Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.







**Xankəndidə...**

**"Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanışlıq**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində "Bulud" hotelində aparılan təmir-bərpa işləri ilə tanış olub.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına hoteldə yaradılacaq şərait barədə məlumat verib.

Ümumi sahəsi 5 min kvadratmetrə yaxın olan hotel beş mərtəbə və zirzəmi qatından ibarətdir. Hoteldə müxtəlif tipli 44 otaq olacaq. Burada ən müasir iaşə məkanları - "lobby lounge", kafe, açıq və qapalı restoranlar da fəaliyyət göstərəcək.

"Xankəndi" Mehmanxana Kompleksinə aid olan "Bulud" hotelində 50 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Xankəndinin mərkəzində yerləşən "Bulud" hotelindən açılan gözəl mənzərə qonaqların zövqünü oxşayacaq.

**Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin açılışında**

Dövlətimizin başçısı Xankəndi şəhərində Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin təmirdən sonra açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verib.

Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində Nizami Gəncəvi adına Xankəndi şəhəri 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmiri nəzərdə tutulub.

Bu təhsil ocağı böyük tarixə malikdir və 1945-ci ildən Azərbaycan məktəbi kimi fəaliyyət göstərib. Məktəbin səmərəli fəaliyyətinin təmin edilməsinin zəruriliyi nəzərə alınaraq Xankəndi sakinlərinin böyük bir qisminin müvəqqəti məskunlaşdığı Bakı şəhərinin Sabunçu rayonunun Ramana qəsəbəsində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 30 dekabr tarixli Sərəncamına əsasən 300 şagird yerlik yeni bina tikilib.

Bildirildi ki, Xankəndidə 4 nömrəli 624 şagird yerlik tam orta məktəbin əsaslı təmirinə Elm və Təhsil Nazirliyinin sifarişi ilə bu ilin mayında başlanılıb. Məktəbin layihəsi 0,67 hektar ərazini, 3760 kvadratmetr ümumi sahəni əhatə edir. Məktəbdə 11 sinif otağı, kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 2 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, həmçinin yeməkxana yaradılıb.

**Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanışlıq**

Prezident İlham Əliyev Xankəndi Dövlət Dram Teatrının binasında görüləcək işlərlə tanış olub.

Xankəndi Dövlət Dram Teatrının binası 1932-ci ildə Azərbaycan Hökuməti tərəfindən tikilib istifadəyə verilib. 1949-cu ildə binanın konstruksiyasına müəyyən əlavələr olunub. Bina sovet dövrü memarlığının əsas elementlərini özündə əks etdirir.

Teatrın binası XX əsr abidəsi kimi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na daxil edilib.

Mədəniyyət Nazirliyinin və digər qurumların mütəxəssisləri tərəfindən 2023-cü ilin noyabrında Xankəndi şəhərində yerləşən mədəniyyət müəssisələrinin monitorinqi aparılan zaman teatrın binasına da baxış keçirilib. Məlum olub ki, işğal dövründə bina istismar üçün yararsız vəziyyətə salındığına görə əsaslı təmirə ehtiyacı var.

**1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında...**

Sonra dövlətimizin başçısı Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının təmirdən sonra açılışında iştirak edib.

Elm və Təhsil Nazirliyinin sifarişi ilə bu ilin mayında Xankəndi şəhəri körpələr evi-uşaq bağçasının əsaslı təmirinə başlanılıb. Məktəbəqədər təhsil müəssisəsinin layihəsi 80 yerlik olmaqla 0,21 hektar ərazini, 1340 kvadratmetr ümumi sahəni əhatə edir. Burada 4 qrup otağı, tibb otağı, metodiki kabinet, mətbəx, akt və idman zalları və camaşırxana yaradılıb.

**Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanışlıq**

Prezident İlham Əliyev sentyabrın 19-da Xankəndi şəhərində Zəfər meydanında Konqres Mərkəzinin tikintisi ilə tanış olub.

Mərkəzin binası dörd mərtəbədən və bir zirzəmi qatından ibarət olacaq. Buradakı hoteldə, ümumilikdə, 102 otaq inşa ediləcək. Otaqlardan 91-i standart, 4-ü suit, 4-ü isə "executive" qonaq otaqlarıdır. Digər 3 otaq isə sağlamlığı məhdud insanlar üçün nəzərdə tutulub.

Bundan başqa, mərkəzdə restoranlar, ölkə və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün ən müasir tələblərə uyğun şərait yaradılacaq.





**Şuşada...**

**Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında**

Dövlətimizin başçısı sentyabrın 19-da Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında iştirak edib.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına ev-muzeyində yaradılan şərait barədə məlumat verib.

Üzeyir Hacıbəylinin ev-muzeyində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2022-ci ilin aprel ayından başlanılıb. Bərpa prosesi evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılmasını, həmçinin həyətyanı sahənin yaşıllaşdırılmasını əhatə edib. Ərazidə mövcud divar daşlarının sökülərək ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası və yenidən qurulması işləri görülüb. Həyətin daş divarının bərpası üzrə bünövrənin qazılıb betonlanması, tarixi görkəminə uyğun hörgüsü və dekorativ elementlərin qoyulması işləri həyata keçirilib.

Muzey binasında aparılan bərpa işlərinin yekununda yeni ekspozisiya yaradılıb. Burada muzeyin konsepsiyası üzrə Üzeyir Hacıbəylinin ev-muzeyinin xilas edilən eksponatları nümayiş olunur.

**Şuşada Bayraq Meydanı açılıb**

Prezident İlham Əliyev sentyabrın 19-da Şuşada Bayraq Meydanının açılışında iştirak edib.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına Bayraq Meydanında görülən işlər barədə məlumat verib.

Bayraq Meydanının yenidən qurulması işlərinə 2024-cü ilin may ayında başlanılıb. Meydanın layihəsi "Chapman Taylor" şirkətinin konsepsiyası əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb.

Bayraq Meydanı amfiteatr ilə əhatələnib. Ərazinin ümumi sahəsi 9190 kvadratmetr, yaşıllıqların sahəsi 3693 kvadratmetr, bayraq dirəyinin hündürlüyü isə 11,7 metrdir. Ərazidəki çoxillik bitkilərin mütləq əksəriyyəti saxlanılaraq layihəyə inteqrasiya olunub. Yaşıllaşdırma işlərində yerli bitkilərlə bu cümlədən çinar ağaclarından istifadə edilib. Burada müasir oturacaqlar və işıqlandırma sistemi quraşdırılıb.

Qeyd edək ki, Bayraq Meydanının ətrafında Şuşa şəhərinin Baş Planına uyğun olaraq Zəfər muzeyinin, çoxfunksiyalı konsert-tamaşa zalının və alış-veriş mərkəzinin inşa edilməsi nəzərdə tutulur.

# Əsrin müqaviləsi - Əsrin mübarizəsi

## Heydər Əliyev bizi bu mübarizədən qalib çıxardı

**30 il əvvəl, 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti ilə "Əsrin müqaviləsi"ni imzalamaqla respublikamızın iqtisadi-siyasi həyatında yeni dövr başlandı. "Əsrin müqaviləsi"nin müəllifi, Ulu öndər Heydər Əliyev bu sazişi gerçəkləşdirməklə Azərbaycan dövlətinin uzunömürlü etibarlı tərəqqisinin bünövrəsini qoydu. Həmin illərdə ölkəmizin iqtisadi həyatında xüsusilə vacib faktora çevrilmiş enerji diplomatiyasının uğurlarında Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyevin misilsiz xidmətləri də mühüm əhəmiyyət kəsb etmişdir. Neft müqavilələri ilə bağlı aparılan gərgin müzakirələrdə birbaşa iştirak edən İlham Əliyevin "Əsrin müqaviləsi"nin Azərbaycanın milli maraqları və mənafeyinə uyğun hazırlanması və imzalanmasında əzmkar fəaliyyəti öz mühüm nəticələrini verdi. Beləliklə, dünyanın ən nəhəng enerji şirkətləri ilə başlanan yeni neft erası "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil olunan neft dünya bazarlarına nəql olunmaqla ölkəmiz qlobal tədarükçülər, neft ixracatçıları aliəsinin layiqli üzvünə çevrildi. "Əsrin müqaviləsi"nin ən əhəmiyyətli fazası olan "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil edilən neftin dünya bazarlarına çıxarılması, 2006-cı ildə Azərbaycan dünyanın ən böyük tranzit arteriyalarından biri olan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin istifadəyə verilməsi isə iqtisadi inkişaf üçün güclü maliyyə aktivləri imkanlarını hərəkətə gətirdi. Neft-qaz sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi, neft resurslarının dünya bazarlarına çıxarılması və valyuta gəlirlərinin ölkəyə daxil olması özünün iqtisadi səmərəsini göstərməyə başladı. Azərbaycanın itirilmiş güclü iqtisadi potensialının və hərəkətsiz qalmış resurslarının bərpa olunması iqtisadi artım üçün geniş imkanlar açdı, milli gəlirlərin formalaşmasını, iqtisadi sabitliyin möhkəmliyini və valyuta stabilliyini təmin etdi.**



**"Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".**

**Heydər Əliyev**



## Azərbaycan nefti dünya bazarında: Üç dənizin əfsanəsi reallıqdır

"Əsrin müqaviləsi"nin imzalanmasından və 1999-cu ildə ilk mənfəət neftinin dünya bazarlarına çıxarılmasından sonra yeni geoiqtisadi reallıqlar da meydana çıxdı. Neft ixracı üçün ilkin dövrlərdə buraxıcılıq qabiliyyətləri ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri Şərq-Qərb artieriyası kimi qlobal ötürmə gücünə malik deyildi. Müqaviləyə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatacağını nəzərə aldıqda daha geniş ixrac xəttinə ehtiyac var idi. Ən optimal variant kimi Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri seçildi. 2005-ci ilin mayında Bakıda BTC-yə ilk neft vuruldu və neft 2006-cı ilin I rübündə Ceyhan limanına çatdı. Bununla da Şərq-Qərb enerji ixracı strategiyası uğurla gerçəkləşdi. Bu neft kəməri dünya dövlətləri ilə Azərbaycan arasında yeni münasibətlərin yaranmasına təkan verdi, ölkəmizin xarici siyasətinin güclənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, eləcə də onun siyasi və iqtisadi baxımdan inkişaf etməsinə səbəb oldu. Eyni zamanda, BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən bütün dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihə olduğunu təqsdilədi.

Azərbaycanın enerji siyasətində növbəti addım BTC ilə nəql edilən neftdən əldə edilən gəlirlərin etibarlı və etimadlı bir ünvanda saxlanılması oldu. Həmin dövrdə Dövlət Neft Şirkətinin (SOCAR) Birinci vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyevin xarici ölkələrin ən mütərəqqi suveren fondlarının təcrübəsini dərindən mənimsəyərək ölkəmizdə tətbiqi ideyası köməyə çatdı. Onun təklifi ilə dünyada bu sahədə mövcud analoji suveren fondların təcrübələri öyrənildi və mükəmməl bir model ortaya qoyuldu. Azərbaycan hökuməti neftdən əldə etdiyi gəlirləri ədalətli, şəffaf və səmərəli şəkildə istifadə etmək üçün dünyada mövcud olan ən qabaqcıl təcrübəyə əsaslanmaqla unikal bir yığım mənbəyi - Dövlət Neft Fondunu yaratdı.

Fondun vəsaitlərinin hansı sahələrə xərclənməsi də mürəkkəb sual yaratmışdı, çünki həmin illərdə ölkəmizin iqtisadi və sosial həyatının bütün sahələrində maliyyəyə kəskin ehtiyac var idi, ancaq Ulu öndər Heydər Əliyev dövlətimizin və xalqımızın bir nömrəli qayğısı olan Qarabağdan köçkün düşmüş soydaşlarımızın ehtiyaclarını, mənzil şəraitini yaxşılaşdırmağı ön sırada görürdü. Məhz bu ümdə mərama əsaslanaraq Neft Fondunda toplanan ilk vəsaitlər doğma torpaqlarını tərk etmiş soydaşlarımız üçün ayrıldı.

Ümummilli liderin uğurlu enerji strategiyasını davam etdirən Prezident İlham Əliyev neft gəlirlərini

## "Əsrin müqaviləsi" güclü iqtisadiyyat-güclü Ordu quruculuğunu təmin etdi

güclü Azərbaycan qurmaq və iqtisadi qüdrətini artırmaq üçün səfərbər etdi, eyni zamanda, bir nömrəli problemimizi - Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizi azad edilməsi üçün güclü ordu quruculuğuna yönəltdi. Məhz həmin güclü iqtisadi arxitektura və hərbi büdcə sayəsində rəşadətli Ordu quruldu və 44 günlük Vətən müharibəsində parlaq Qələbə qazanıldı, 2023-cü ilin sentyabr ayında bir günlük lokal antiterror əməliyyatları nəticəsində münaqişənin son akkordu tamamlandı, Azərbaycanın dövlət suverenliyi və Konstitusiya hüquqları 86,6 min kv.km ərazilərinin hər bir nöqtəsində təmin olundu.

Həmçinin neft gəlirlərinin səmərəli idarə olunması və iqtisadiyyatın inkişafına şaxələndirilməsi sayəsində ölkəmizin bütün regionlarında infrastrukturları əhəmiyyətli şəkildə modernləşdirildi, qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafı təmin edildi, sosial rifah davamlı olaraq yaxşılaşdırıldı, əhalinin məşğulluğu artırıldı və ölkədə yoxsulluğun səviyyəsi azaldıldı.

## Azərbaycan Cənubi Qafqazın lider iqtisadi gücünə çevrilib

"Əsrin müqaviləsi"nin növbəti uğur səhifəsi 2017-ci ildə Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması oldu. Qətiyyətli enerji diplomatiyası sayəsində Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurumun yeni uğurlu davamı - TANAP, TAP və digər qlobal trans-enerji arteriyaları gerçəkləşdi. Beləliklə, neft-qaz layihələrindən əldə edilən milli dividendlər iqtisadiyyatın inkişafında əsaslı rol oynadı, ölkə iqtisadiyyatına 300 milyard dollar investisiya yatırıldı ki, 155 milyardı xarici kapitalın payına düşür.

Azərbaycan bu mükəmməl siyasət nəticəsində Cənubi Qafqazın lider iqtisadi gücünə çevrildi, 2003-2023-cü illərdə Ümumi Daxili Məhsul (ÜDM) 14,8 dəfə artaraq 134 milyard manata çatdı, dövlət büdcəsinin gəlirləri 25,2 dəfə artaraq 1,2 milyard manatdan 35,8 milyard manata yüksəldi, büdcənin xərcləri 27 dəfə aratarq 1,3 milyard manatdan 36,6 milyard manata çatdırıldı. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 48 dəfədən çox artaraq 72 milyard dollara yüksəlib.

## "Yaşıl Əsrin Müqaviləsi"nə keçid...

"Əsrin müqaviləsi"nin 30 illik yubiley ilində Azərbaycanın enerji doktrinasının yeni səhifəsi olan "yaşıl enerji" sazişləri ilə tam yeni mərhələnin əsası qoyuldu. 2024-cü il iyunun 4-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə dəyəri 1 milyard dollara bərabər olan 3 müqavilənin imzalanması ilə enerji siyasətinin yeni dövrü başlandı. Eləcə də Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb.

Beləliklə, Azərbaycan 30 il əvvəl xarici neft konsorsiumları ilə bir ailədə birləşdiyi kimi hazırda "yaşıl enerji" ilə bağlı beynəlxalq təşkilatlar, müxtəlif ölkələr və sərmayədarlarla fəal əməkdaşlıq edərək əsrin yeni koalisiyasını formalaşdırmaqdadır. Bütün bunlar isə "Əsrin müqaviləsi"nin davamı olan "Əsrin Yaşıl Müqaviləsi"nin uğurlu start götürdüyünü təsdiqləyir.

*ELBRUS CƏFƏRLİ*

# Ali missiyamızın tamamlandığı tarix!

## Suverenlik Günü dünənimizin təsdiqi, bu günümüzün qüruru, sabahımızın ümididir...

**2023-cü il antiterror tədbirləri 35 il davam etmiş ədalətsizliyi, işğalı və haqsızlığı aradan qaldırdı. 1988-ci ildən erməni separatizminin qurbanına çevrilmiş Xankəndi şəhəri, 1992-ci ilin qanlı 26 fevralında zülmə və soyqırımına uğrayan Xocalı, o cümlədən Ağdərə, Xocavənd və başqa ərazilərimiz separatizmin cəngindən xilas edildi. 23 saat davam etmiş antiterror tədbirləri 35 illik Xankəndi həsrətinə son qoydu - suverenliyimiz bərpa edildi!**

## Ən vacib tarix

Azərbaycan Respublikasının Dövlət Suverenliyi Günü rəsmiləşdi - Azərbaycanın dövlət suverenliyini bərpa edən Ali Baş Komandan, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 20 noyabr Suverenlik Günü kimi şanlı tariximizdə yer alacaq.

Tarixi qanunauyğunluq yaşanır: 23 saata bərpa edilmiş suverenliyimizin tarixi mahiyyəti 100 illərlə xatırlanacaq, yaşayacaq və unudulmayacaq. İmzalanan Sərəncamdan sitat: "Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir".

Milli yaddaşımızın ən qanlı parçalarından olan Qarabağın işğal dövrü məhz bu Sərəncamın mahiyyəti ilə xarakterizə olunur, tarixə həkk edilir. Tarix unudulmur - amma heç bir ədavət və ya düşmənlik əbədi davam etmir. Bu günün təsis edilməsi, bu Sərəncamın imzalanması Azərbaycan tarixinin yeni inkişaf mərhələsinin başlanğıcı olmaqla yanaşı, 33 illik tariximizdə çəkilən əziyyətlərin, yaşanan məşəqqətlərin, məhrumiyyətlərin, uğradığımız beynəlxalq ədalətsizliyin və nəhayət, xalqımızın qətiyyətinin, müstəqilliyimizin dönməzliyi uğrunda aparılan mübarizənin imzalanan rəsmidir. Prezident İlham Əliyev şərəf tariximizin ən vacib, hətta müstəqilliyimizə tən olan məqamını yaddaşımızın məhək daşına çevirdi.



## Müstəqilliyimiz əsl məzmununu qazandı

Azərbaycan dövləti məhz bu gündə - 2023-cü ilin 19-20 sentyabrında özünün ali missiyasını tamamladı. 1991-ci ildən yol alan müstəqilliyimiz özünün əsl məzmununu qazandı. Suverenliyimizin bərpasına uzanan yol keşməkeşli oldu:

- Uzun illərə söykənən diplomatik fəaliyyət, yaranan beynəlxalq situasiyalarda davranış qaydaları, düzgün və hədəfə irəliləyən xarici siyasət kursu;
- Hərbi gücün möhkəmləndirilməsi, nizami ordunun formalaşdırılması;
- Daxili iqtisadi gücün təmərküzləşdirilməsi;
- Müasir dünyaya açılış, müasir innovasiyaya açıq olmaq;
- Milli həmrəyliyin gücləndirilməsi;
- Paralel olaraq ölkədə siyasi birliyin təmini;
- Sabitlik və inkişaf;
- Milli maraqlar ətrafında səfərbərliyin təmini...

Bu siyahını daha da uzatmaq olar. Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin yorulmadan, fasiləsiz, qətiyyətlə apardığı siyasi kurs səbr və inkişaf nümunəsinə çevrildi - xalqına, milətinə inam, qarşılıqlı etimad, hörmət və sevgi ən nəhayətində öz bəhrəsini verdi. 20 sentyabr tarixi TARİX oldu - Prezident İlham Əliyevin müvafiq Sərəncamında deyilir: "Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır".



Azərbaycan son 4 ildə dünyanın gözü qarşısında tarixin gediş məcrasını dəyişdi - Özünün suverenliyini bərpa etməklə yanaşı, böyük güclərin 30 il oyun meydançasına çevirdiyi Cənubi Qafqazın xilaskarı oldu. Beləliklə, yeni dövr üçün yeni tarix başlayır - bu, Azərbaycan tarixi olmaqla yanaşı, Azərbaycanın yaratdığı tarixdir!!!

## Bütövlük rəmzi...

Müstəqillik milli sərvətdir - onun əbədiliyinin təmin edilməsi isə ümumxalq vəzifəsidir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə qoruduğu, uçurumdan xilas etdiyi, əbədiliyini təmin etdiyi müstəqilliyimiz bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoyur - artıq işğal yoxdur, artıq "münaqişə" yoxdur, artıq "separatizm" yoxdur və nəhayət, artıq bütöv, suveren, yeni dünyanın yeni siyasi-iqtisadi aktoru olan Azərbaycan var. Ağır imtahanlardan çıxan xalqımız və dövlətimiz Silahlı Qüvvələrimizin Qarabağ uğrundakı savaşda açdğı cığırı geniş, abad, müasir yollara çevirir. Suverenliyimizin bərpası həm də bütövlüyümüzün rəmzidir. Bütövlüyümüz isə bizim ən böyük milli sərvətimizdir. Prezident İlham Əliyevin imzaladığı tarixi Sərəncamda göstərilir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Bütövlüyümüz həm coğrafi, həm mənəvi, həm də siyasi mahiyyət daşımaqdadır. Biz artıq dünya miqyasında adı xüsusi hörmət və ehtiramla çəkilən bir dövlət kimi tanınırıq - son 100 ildə ilk dəfə olaraq itirilən torpaqlarını geri qaytaran bir dövlət kimi...

Biz ədalət simvolu sayılırıq - qalibiyyəti ilə sülh və humanizm gətirən bir dövlət kimi...

Biz inkişaf nümunəsi saylırıq - 30 ildə digər dövlətlərin 100 ilik inkişaf tarixinə bərabər yol gedən dövlət kimi...

Biz qətiyyət və qürur nümunəsi sayılırıq - əzmini itirməyən, səbrlə Zəfərə gedən yolunu təqib edən bir dövlət kimi...

Nəhayət, biz qurucu dövlət nümunəsi sayılırıq - barbarların təcavüzünə məruz qalmış torpaqlarını işğaldan azad etdikdən sonra ən qısa zamanda abad, yeni və müasir şəhərlərini, kəndlərini qurmuş dövlət kimi...

Suverenliyin bərpası həm də tarixi yaddaşın yenilənməsidir. Prezident İlham Əliyevin hər zaman bildirdiyi kimi, biz tariximizi unutmamalıyıq. Gələcək üçün səfərbər olanda keçmişimizi xatırlamalıyıq. Suvereliyimiz dünənimizin təsdiqi, bu günümüzün qüruru, sabahımızın ümidi olmalıdır. Bu tarixi günü qeyd edərkən bu uğurda çəkilən əziyyətləri, tökülən qanları unutmamalıyıq - SUVERENLİK GÜNÜN, SUVERENLİK BAYRAMIN MÜBARƏK, AZƏRBAYCAN!!!

*Pərviz SADAYOĞLU*

# 4 şəhərin bir günü...

## Xankəndi, Xocalı, Xocavənd, Ağdərə - gününüz mübarək!

Müstəqil Azərbaycan 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində son 200 illik tariximizdə ən möhtəşəm qələbələr qazanıb. Biz yalnız işğalçı Ermənistana deyil, bütövlükdə dünya erməniliyinə qalib gələrək ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etmişik. İgid əsgər və zabitlərimizin şücaəti, canı-qanı bahasına qazanılan qələbələr sayəsində ilk dəfədir ki, torpaq itkilərinə məruz qalmamışıq, əksinə zor gücünə zəbt olunmuş torpaqlarımızı geri qaytarmışıq. Şəhər və kəndlərimizin azad olunması bizim üçün bayramdır və Prezident İlham Əliyev ölkəmizdə şəhər günlərinin təsis edilməsi ilə bağlı imzaladığı müvafiq sərəncamlarla bunu rəsmiləşdirib. Xatırladaq ki, dövlətimizin başçısı 2023-cü il 31 iyul tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Ölkə rəhbərinin bu günlərdə imzaladığı yeni Sərəncamla həmin sənədə aşağıdakı məzmunlu dəyişiklik edilib: "20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü". Beləliklə də, respublikamızda işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin sayı 9-a çatıb.










### İşğaldan azad olunmuş ərazilər üzrə şəhər günləri

Otuz illik işğal dövründə ermənilər torpaqlarımızda ağlasığmaz vandalizm əməllərinə əl atıblar. Bu ərazilərdə yaşayan azərbaycanlılar öz ev-eşiklərindən zorla çıxarılıb, eyni zamanda, ucdantutma hər şey dağıdılıb və yerlə-yeksan edilib. Məqsədli şəkildə viran qoyulan şəhər və kəndlərimizin siyahısı çox uzundur. Bu siyahıda 9 Azərbaycan şəhərinin adı var. Ermənistan, eyni zamanda, Azərbaycanın yüzlərlə kəndini qəsdən dağıdıb, bütün mədəni və dini abidələrimizi viran qoyaraq, talayaraq, onları əsl urbisid (şəhərlərə qarşı genosid) və kultursid (mədəniyyətə qarşı genosid) nümunələrinə çevirib. Sözsüz ki, İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Ermənistan bu ərazilərdə əsrlər boyu yaşayan Azərbaycan xalqının izini silməyə çalışıb. Ağdam o dərəcədə dağıntıya məruz qalıb ki, xarici mütəxəssislər onu "Qafqazın Xirosiması" adlandırırlar. Füzuli şəhəri işğaldan azad olunanda Azərbaycan Ordusu orada bir dənə də salamat bina tapa bilmirdi ki, onun üzərində bayrağımızı dalğalandırsın. Ermənistanın işğalı altında olmuş ərazilərdə 67 məsciddən 65-i yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb. Hətta qəbiristanlıqlar belə təhqir olunub, dağıdılıb və talanıb.

Vətən müharibəsində işğaldan azad edilən ərazilərin hər qarışı bizim üçün son dərəcə əzizdir. Biz düz otuz il ərzində yurd yerlərimizə, doğma kəndlərimizə, şəhərlərimizə qayıtmağın həsrəti ilə yaşamışıq. 44 günlük müharibədə, 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində şanlı Ordumuzun şücaəti ilə əldə olunan böyük qələbələr sayəsində bu həsrətə son qoyulub və ölkəmizin ərazi bütövlüyü təmin olunub.

Xalqımızın işğaldan azad olunan ərazilərə böyük bağlılığı var. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə işğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi də bunun rəsmi olaraq təsdiqidir. İşğaldan azad edilmiş ərazilər üzrə şəhər günlərinin təsis edilməsi həm də böyük qələbələrimizin təbliği, gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi anlamına gəlir. Bu qələbələri heç kəs bizə hədiyyə etməyib. Onları igid hərbiçilərimiz canları, qanları hesabına qazanıblar. Xaincəsinə torpaqlarımıza soxulan düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Silahlı Qüvvələrimiz Vətən müharibəsində misilsiz şücaətlər göstərərək 300-dən çox yaşayış məntəqəsini bilavasitə döyüş meydanında geri qaytardı. Alınmaz qala sayılan Şuşanın, Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Hadrutun geri qaytarılması uğrunda gedən döyüşlərdə əsgər və zabitlərimiz misilsiz qəhrəmanlıqlar göstərdilər. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Dövlətimizin başçısının imzaladığı Sərəncamda da vurğulandığı kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük Qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı - Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu. Prezident İlham Əliyevin imzaladığı iki Sərəncama əsasən, hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunur. Siyahını təqdim edirik:

26 avqust - Laçın şəhəri günü,
4 oktyabr - Cəbrayıl şəhəri günü,
17 oktyabr - Füzuli şəhəri günü,
20 oktyabr - Zəngilan şəhəri günü,
25 oktyabr - Qubadlı şəhəri günü,
8 noyabr - Şuşa şəhəri günü,
20 noyabr - Ağdam şəhəri günü,
25 noyabr - Kəlbəcər şəhəri günü.
20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü.

### Saxta tarix və qara gələn "Artsax bayramı"

Beynəlxalq hüququ manipulyasiya edən ermənilər özləri barəsində müxtəlif səpkidə miflər uydurublar. Bu sırada bədnam "miatsum", "dənizdən-dənizə böyük Ermənistan", "mədəni xalq", "yenilməz ordu" miflərini sadalaya bilərik ki, onların da heç birinin əsası yoxdur və başdan ayağa blefdən ibarətdir. Ermənilərin yuxuda görüb səhər uydurduqları belə blef miflərdən biri də qondarma 2 sentyabr - "Artsax"ın müstəqillik günü idi. Xəstə təxəyyülün məhsulu olan bu mif də artıq digərləri kimi puç olub və ermənilərin bu günlə bağlı xəyalları sulara qərq olaraq əriyib. Artıq "Artsax" günü onlar üçün matəm gününə çevrilib.

Azərbaycanın şanlı Zəfəri ilə başa çatan 44 günlük müharibəyədək ermənilər, necə deyərlər, eyforiyada idilər, xam xəyalları göylərdə uçurdu. Onlar "yenilməz ordu"larına güvənərək hər il sentyabrın 2-də Xankəndidə "Artsax" günü"nü böyük şadyanalıqla qeyd edirdilər. "Bayram" tədbirlərində separatçıların "liderləri" Ermənistandan, Fransadan və xaricdəki erməni lobisinin girovluğunda qalan digər belə ölkələrdən gələn qonaqları qarşılayardılar. Xoşbəxtcəsinə badələr qaldırılır, "döyüşkən erməni xalqının" şərəfinə təmtəraqlı sağlıqlar söylənilirdi...

Son 4 ildə isə... Artıq "Artsax oyunu" bitib və "Artsax" günü"də tarixin zibilliyinə atılıb. Daha Ermənistandan, uzaq xaricdən gələn qonaqların ayağı Xankəndidən kəsilib. Elə separatçıların özləri də "asta qaçan namərdir" deyib ərazilərimizdən birdəfəlik rədd olublar. 44 günlük müharibədən sonra xəstə təxəyyüllü ermənilər möcüzə baş verəcəyinə və "Artsax"ın 30 illiyinin təmtəraqlı şəkildə qeyd olunacağını gözləyirdilər. Separatçıların gözləri Laçın-Xankəndi yoluna dikilmişdi. Onlar gözləyirdilər ki, ana Ermənistanın rəhbərliyi başda Nikol Paşinyan olmaqla "yubiley" törəninə mütləq qatılacaq. Mifik xəyallar bir qədər də ucalara qalxaraq Fransadan, Yelisey Sarayından qonaqlar soraqlayırdı. Ancaq gözləntilər doğrulmadı-Ermənistan parlamentinin bir-iki deputatından savayı "Artsax"ın 30 illik "yubiley" törənini yada salan olmadı. Məyus qalan separatçılar da yalnız kağız parçasından ibarət "bəyanat" verməklə "yubiley" törənini yekunlaşdırmaq məcburiyyətində qaldılar.

Qara gələn "yubiley" bayramının ardınca baş verənlər hər kəsə bəllidir. 2023-cü ilin 19 sentyabr tarixində Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror aktları törətdilər. Həmin təxribatlar nəticəsində mülki şəxslər və hərbçilərimiz həyatlarını itirdilər. Ordumuz təxribatların qarşısının alınması, üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Sentyabrın 28-də Qarabağdakı separatçı təsisatın rəhbəri Samvel Şahramanyan qondarma rejimin ləğvi ilə bağlı sənəd imzalayıb və beləliklə də ərazilərimizdə separatizmə birdəfəlik son qoyulub. Bununla da "Artsax oyunu"nun və "Artsax bayramı"nın birdəfəlik sonu gəlib...

### Ədalətin və tarixin bərpası

Prezident İlham Əliyevin Sərəncamı ilə bundan sonra hər il sentyabrın 20-də şəhər günləri qeyd olunacaq Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində işğalçılardan təmizlənməsi ədalətin və həm də tarixin bərpasıdır.

Xocalı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni vəhşiliyinə tuş gələn və təsəvvürəgəlməz zülm, sitəm yaşayan bir şəhərdir. Erməni soyqırımlarının 1988-1993-cü illərdəki son mərhələsi xüsusi amansızlığı ilə səciyyələnir. Bu mərhələdə Xocalı şəhəri erməni vandalizminin növbəti ünvanı oldu. Qanlı gecədə keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə Xocalıya hücum çəkən ermənilər bütün şəhəri yerlə-yeksan etdilər. Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Srebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Qətlə yetirilən insanlardan 56 nəfəri xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürülüb.

Separatçıların qondarma qurumun baş şəhəri elan etdikləri Xankəndiyə münasibətdə də erməni məkrinə yol verilib. Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. Xanların fəaliyyətinə uyğun şərait yaradılması üçün istirahət məskəni xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində planlaşdırılır. Bu zaman istirahət məskəninin xanlığın digər vacib şəhər və kəndlərinə, o cümlədən Ağdama, Xocalıya, Malibəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Bəhs olunan məntəqələrin hamısında istisnasız olaraq azərbaycanlılar yaşayırdılar. İlk vaxtlarda yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında məhz bu adla tanınıb: Xanın kəndi. Az vaxt ötəndən sonra isə "Xanın kəndi" "Xankəndi" adını alıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə hədiyyə olunub. "Xankəndi" toponimi 1923-cü ildə keçmiş ittifaqın mərkəzi hakimiyyətinin diqtəsi ilə dəyişdirilib və şəhərə saxta "Stepanakert" adı verilib. Separatçılar da məhz bu toponimdən istifadə ediblər.

İşğal dövründə Xocavənd və Ağdərə şəhərləri də oxşar talelərlə üzləşiblər. Ancaq artıq kədərli günlər keçmişdir. Bir il bundan əvvəl baş tutan uğurlu lokal xarakterli antiterror tədbirlərindən sonra digər azad olunan yaşayış məntəqələri kimi, Xocavənd və Ağdərə də artıq doğma əllərdədirlər. Bütün şəhərlərimizin şəhər günləri mübarək olsun!

*Mübariz ABDULLAYEV*

## XİN: Antiterror tədbirlərinin "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilməsi qəbuledilməzdir

Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək ölkəmizin Qarabağ iqtisadi rayonundan tamamilə çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikasının suverenliyinin və konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror tədbirlərinin Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən "Dağlıq Qarabağa hücum" və "etnik təmizləmə" kimi qələmə verilməsi qəbuledilməzdir.



Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin 19 sentyabr tarixli bəyanatına dair şərhində yer alıb.

A.Hacızadə, həmçinin qeyd edib: "Sülhpərvər ölkə olduğunu iddia etməsinə baxmayaraq, Ermənistan tərəfindən Azərbaycanın əzəli və əbədi torpağı olan Qarabağın "Dağlıq-Qarabağ" kimi qondarma adlarla çağırılması Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı hörmətsizliyin bariz nümunəsidir.

Ötən ilin 19-20 sentyabr tarixləri arasında Silahlı Qüvvələrimiz tərəfindən cəmi 24 saatdan az bir müddətdə öz suveren ərazilərimizdə aparılan antiterror tədbirləri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə həyata keçirilib. Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tarixinin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsidir.

Ermənistanın 2020-ci il Vətən müharibəsində düçar olduğu məğlubiyyətə və qəbul etdiyi öhdəliklərə baxmayaraq və 2023-cü ilədək keçən üç ilə yaxın müddət ərzində öhdəliklərinə zidd şəkildə, nəinki öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmadığı, hətta Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürdüyü məlum idi. Ölkəmizə qarşı mina terrorunu davam etdirən Ermənistan, zaman keçdikcə onun daha geniş vüsət almasına rəvac verirdi. Ermənistan rəsmiləri hər vəchlə ərazilərimizdə saxladıqları qondarma rejimin təbliğatını apararaq, Ermənistan baş naziri 2 sentyabr 2023-cü il tarixində qondarma "müstəqillik" ilə bağlı separatçı rejimə təbriklərini çatdırdı.

Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən nəticə çıxarmayan Ermənistanın heç bir çərçivəyə sığmayan bu kimi davranışlarının qarşısının alınması əsas şərtlərdən idi.

2023-cü ilin 19 sentyabr tarixində erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşının həlak olması isə Azərbaycanın səbir kasasının daşmasına səbəb oldu və antiterror tədbirlərini qaçılmaz etdi.

Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəf alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Yaşayış yerlərini tərk etməmək barədə Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına, tətbiq etdiyi reinteqrasiya proqramına baxmayaraq, erməni sakinlər Azərbaycan ərazilərini tərk etmək barədə qərar verdilər. Bu onların azad seçimi idi və bunu "etnik təmizləmə" kimi qələmə vermək, Ermənistan və işğal etdiyi Azərbaycan ərazilərindən azərbaycanlıları kütləvi şəkildə qovan, soyqırımı və kütləvi qırğınlar törədən Ermənistanın riyakarlığını nümayiş etdirir.

Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpasından sonra Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması və nəticə etibarilə yekun sülh sazişinin imzalanması üçün tarixi fürsət yaranıb. Bu baxımdan, Azərbaycan regionumuzun təhlükəsizliyi və tərəqqisi naminə sülh prosesinin təşəbbüskarı olduğu və bu istiqamətdə həqiqi səylər göstərdiyi məqamda Ermənistan konstitusiyasında və digər qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların qalması qəbuledilməzdir və Ermənistan tərəfindən tarixi sülh fürsətinin əldən verilməməsi üçün sözügedən iddiaların aradan qaldırılması istiqamətində təzliklə lazımi adekvat addımların atılması zəruridir.

Azərbaycan xalqı və dövləti üçün bu tarixi önəmli gündə bir daha Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən vətən övladlarımızın əziz xatirəsini dərin hörmətlə yad edirik.

Şanlı Silahlı Qüvvələrimizlə fəxr edir, dövlətimizin və xalqımızın hər zaman müzəffər olmasını diləyirik!".

## İcma: tarixin bu ağrılı səhifəsinin ləyaqətlə bağlanması üçün...

Qərbi Azərbaycan İcması antiterror tədbirlərinin ildönümü ilə bağlı bəyanat yayıb.

Bəyanatda deyilir: "Bu gün Azərbaycan Respublikasının Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirlərindən bir il ötür. Azərbaycan otuz ildən artıq davam edən haqsızlığa bu tədbirlərlə son qoydu və ölkənin suverenliyini tam bərpa etdi. Bu qətiyyətli addım Ermənistanın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı uzunmüddətli qəsdini sona çatdıraraq beynəlxalq hüququn aliliyini təmin etdi.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə başlanmış sistemli mübarizə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla tamamlandı. Otuz il davam edən və tam qələbə ilə nəticələnən bu mübarizə Azərbaycanda xalq və dövlət arasında birliyin təcəssümüdür.

Azərbaycanın atdığı addımlar təkcə özünün milli maraqlarına xidmət etməyib, həm də beynəlxalq ədalət prinsiplərini müdafiə edib. Bu, dünyanın xaos və ədalətsizliklərlə dolu olduğu bir dövrdə haqqın və ədalətin nadir təntənəsidir.

Təəssüf ki, bəzi xarici qüvvələr bu nailiyyətləri mənfi formada göstərməyə və ikiüzlük yolu ilə yenidən gərginlik yaratmağa cəhd göstərirlər. Biz bu qüvvələrdən beynəlxalq hüququn normalarına hörmət göstərməyi və regionda davamlı sülhə mane olmamağı tələb edirik.

Biz bütün dövlətləri ədalətin bu şanlı qələbəsini alqışlamağa və tarixin bu ağrılı səhifəsinin ləyaqətlə bağlanması üçün Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıdışını dəstəkləməyə çağırırıq"

# 23 ölkədən 80-dən çox alim...

## Bakıda bir araya gəldi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə hazırlanmışdır

Xaricdə yaşayan həmvətənlərimizin sıralarında çoxsaylı elm xadimləri var. Təbii ki, bu, Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır. Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi üçün təqdirəlayiq işlər görülüb.

Həmin tədbirlərdən biri olaraq bugünlərdə paytaxtımızda keçirilən xaricdə yaşayan azərbaycanlı alimlərin forumunu xüsusilə qeyd etmək yerinə düşər. Forum Diasporla İş üzrə Dövlət Komitəsinin və Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə baş tutub. 23 ölkədən 80-dən çox azərbaycanlı alimin qatıldığı tədbirdə ümumilikdə 200-ə yaxın elm xadimi iştirak edib. Bundan başqa, Prezident İlham Əliyev forum iştirakçılarına müraciət ünvanlayıb.

Forumun məqsədi müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq, dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfələr vermək dir. Forum çərçivəsində iştirakçılar işğaldan azad edilmiş ərazilərin bərpası prosesində alimlərimizin bilik və təcrübəsindən yararlanmaq məqsədilə Şuşa və Xankəndi şəhərlərinə gediblər. Bundan başqa, onlar Qarabağ Universitetinin müəllim heyəti ilə müzakirələr aparıblar.

**Xaricdə yeni nəsil alimlər yetişir**

Forumda çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bildirib ki, sözügedən forumun təşkili, dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən azərbaycanlı alimlərin Bakıda toplanması mühüm hadisədir. Təşkilatlanma işinin əhəmiyyətini qeyd edən F.Muradov komitənin fəaliyyətini dövlətin siyasətinə, "Yol xəritəsi"nə uyğun qurduğunu bildirib: "Məqsədimiz birliyə nail olmaq, həmrəyliyimizi daha da gücləndirməkdir".

Komitə sədri xaricdə artıq yeni nəsil alimlərin yetişdiyini bildirib. Onun sözlərinə görə, xaricdə yaşayan soydaşların hər birinin uğuru birlikdən keçir. Onlardan əsas gözlənti dövlətə töhfə vermək, təcrübələrini bölüşməkdir.

F.Muradov qeyd edib ki, incəsənət nümayəndələri, o cümlədən musiqiçilər də elmin inkişafına müxtəlif formalarda töhfə verirlər.

**Azərbaycan dili dərsliyi çap olunacaq**

F.Muradov həmçinin bildirib ki, xaricdə yaşayan azərbaycanlılar üçün Azərbaycan dili dərsliyi çap olunacaq. Komitə sədrinin sözlərinə görə, bu dərslik həm də xaricdə Azərbaycan dilini öyrənmək istəyənlər üçün faydalı ola bilər.

**Beynəlmiləl təcrübənin əhəmiyyəti**

Müzakirələrdə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev rəhbərlik etdiyi ali təhsil ocağının özülünün beynəlmiləlçilik əsasında qoyulduğunu vurğulayıb. Beynəlmiləl təcrübənin əhəmiyyətindən danışan rektor xaricdən gələn alimlərin rolunu vurğulayıb və forumun bu istiqamətdə töhfə verəcəyindən əmin olduğunu ifadə edib.

Mövzu ətrafında çıxış edən və təkliflərini səsləndirən digər natiqlər tədbirin noyabr ayında Azərbaycanda keçiriləcək COP29 ərəfəsində təşkil edildiyini vurğulayaraq, kadrların hazırlanmasının qlobal əmək bazarının tələblərinə uyğunlaşdırılması, rəqəmsallaşma, yeni model universitet təhsili istiqamətində beynəlmiləşmə strategiyasının roluna toxunublar.

**Peşəkar və gənc alimlər arasında körpü...**

Əməkdar elm xadimi, Münxen Texniki Universitetinin professoru, Humboldt mükafatı alan ilk azərbaycanlı alim, fizika-riyaziyyat elmləri doktoru, dünya şöhrətli azərbaycanlı alim Məsud Əfəndiyev qeyd edib ki, forumun təşkilində məqsəd Azərbaycan elminin inkişafına töhfə vermək, peşəkar və gənc alimlər arasında körpü yaratmaqdır.

Alim Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi, elmimizin yüksək səviyyədə inkişaf etdirilməsi üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb. "Xalqımızın inkişafına elmimizdən gələn qədər töhfə verməyə hazırıq", - deyə azərbaycanlı alim qeyd edib.

**Xaricdə yaşayan alimlərimizdən gözləntilər çoxdur**

Forumda Azərbaycan elminin inkişaf etdirilməsi istiqamətində maraqlı müzakirələrin aparılacağına əminliyini diqqətə çatdıran elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, tədbir çərçivəsində ən vacib məqam Azərbaycandan kənarda yaşayan alimlərimizlə inteqrasiya məsələsidir.

Elm və Təhsil Nazirliyi tərəfindən göstəriləcək dəstək və imkanlar barədə danışan nazir transformasiyanın ən böyük problem olduğunu qeyd edib. Elmi rəqəmlərlə ölçməyin mümkün olmadığını deyən nazirin sözlərinə görə, Azərbaycan üçün elm və təhsil sahəsində müəyyən problemlər var. Lakin son on il ərzində bu sahədə müsbət işlər görülüb. Nazir xaricdə yaşayan alimlərimizdən gözləntilərin çox olduğunu da diqqətə çatdırıb.

*Yeganə BAYRAMOVA*

# Bakı və Bağdad yeni iqtisadi hədəflər müəyyən edib

Azərbaycan və İraq yaxın dost və etibarlı tərəfdaş ölkələr kimi siyasi-iqtisadi sahələrdə son illərdə təmasları artırmaqdadır. Tərəflər müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirərək BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında bir-birini dəstəkləyir, qarşılıqlı olaraq bir çox layihələrin reallaşmasında fəal mövqe nümayiş etdirir.

Ötən ilin noyabr ayında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin Azərbaycana rəsmi səfəri Azərbaycan-İraq münasibətlərində yeni mərhələ açaraq əlaqələrin yeni gündəliyini müəyyən edib. Səfər çərçivəsində imzalanmış sənədlər, o cümlədən əmək və sosial müdafiə, turizm, nəqliyyat bölmələrinə aid sazişlər, ümumilikdə, iqtisadi tərəfdaşlığın güclənməsinə yönəlmiş birgə iradəni nümayiş etdirir.




## Azərbaycan-İraq Biznes Şurası sahibkarlar arasında körpüyə çevriləcək

İki ölkə arasında iqtisadi münasibətlərin hərarətinə 2011-ci ildən fəaliyyət göstərən Ticarət, iqtisadiyyat, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyası da mühüm töhfə verib. Komissiya bir çox istiqamətlər üzrə real addımların atılmasında təşviqedici və dəstəkləyici fəaliyyət göstərib. Nəticədə iki ölkə arasında iqtisadi dövriyyənin artımında müsbət dinamika daha da güclənib. 2024-cü ilin yanvar-iyul aylarında ticarət dövriyyəsində 49 faizlik artımın qeydə alınması da ticari mübadilənin dinamikasından xəbər verir.

İki ölkənin qarşılıqlı investisiya planları da öz müsbət bəhrəsini göstərməkdədir.

Hazırda 170-ə yaxın İraq şirkəti Azərbaycanda müxtəlif sektorlar üzrə fəaliyyət göstərir. Azərbaycan şirkətləri İraqda böyük infrastruktur layihələrində podratçı qismində iştirak edib və bu ölkədə inşaat, enerji, su təchizatı, yol və körpülərin tikintisinə tələbin mövcudluğu şirkətlərin İraqda fəaliyyəti üçün yeni imkanlar açır.

İki ölkənin biznes icmasının və iqtisadi sahələri təmsil edən dövlət orqanlarının nümayəndələrinin iştirakı ilə keçirilən Biznes-forumlar isə ticari-iqtisadi əlaqələrin artırılması, investisiya imkanlarının qiymətləndirilməsi, yeni layihələrdə əməkdaşlığın təmin edilməsi istiqamətində mühüm platforma rolunu oynamaqdadır. Bu baxımdan Azərbaycan İqtisadiyyat Nazirliyi, İraqın Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və İraqın Ticarət Palataları Federasiyasının birgə təşkilatçılığı ilə sentyabrın 17-də Bakıda keçirilən Azərbaycan-İraq Biznes-forumu perspektiv potensialların əlaqələndirilməsində yeni fürsət kimi dəyərləndirilə bilər. Tədbirdə kənd təsərrüfatı, qida, logistika, tikinti, konsaltinq, gəmiçilik və s. sahələrdə fəaliyyət göstərən 100-ə yaxın iş adamının iştirakı iqtisadi gündəliyin kifayət qədər əhatəli olmasına işarə edir və qarşılıqlı səylərin artırılmasına zəmin yaradır.

## Azərbaycan İraqa qızıl ixracını planlaşdırır

İraqın Ticarət Palataları Federasiyasının prezidenti Əbdülrəzaq Əl-Zuheyrinin bəyan etdiyi kimi imkanlar böyükdür və iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlığın genişləndirilməsi perspektivlərini dəyərləndirərək konkret layihələrin icrasına keçmək lazımdır. İraq-Azərbaycan Biznes Şurasının sədri Məhəmməd Əl-Davudi da işgüzar dairələr arasında keçirilən görüşlərin ikitərəfli iqtisadi münasibətlərin genişlənməsindəki əhəmiyyətini vurğulayaraq nəqliyyat-logistika və digər sahələr üzrə anlaşmalar əsasında addımlar atmağın vacibliyinə diqqət çəkib. Habelə, investisiyaların cəlb edilməsi və ixracın artırılması üçün strateji tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, sahibkarlar arasından birbaşa əməkdaşlığının gücləndirilməsi də qarşıya vəzifə kimi qoyulub. Bu hədəflərə çatmaq üçün İraqda Azərbaycan Ticarət Evinin açılması planlaşdırılır.

Biznes-forum çərçivəsində Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə İraq Ticarət Palataları Federasiyası arasında Azərbaycan-İraq Biznes Şurasının yaradılması haqqında razılaşma sənədinin imzalanması tərəflər arasında iqtisadi münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasından irəli gəlir. Biznes Şura sahibkarlar arasında əməkdaşlıq və təcrübə mübadiləsi üçün platforma rolunu oynamaqla, iqtisadi əlaqələrin gücləndirilməsi və ticarət imkanlarının artırılması istiqamətində mühüm rol oyanayacaq və iqtisadi əlaqələrin çoxtərəfli formatını təmin edəcək.

## İraq "Şimal-Cənub" nəqliyyat dəhlizinə qoşulmaqda maraqlıdır

Azərbaycan son illərdə ixracın diversifikasiyasına xüsusi yer ayırır və yeni xarici bazarlarda mövqe tutmağa çalışır. Orta Şərq-Afrika regionuna ixracın təmin edilməsi istiqamətində aparılan araşdırmalar da məhz ixracın şaxələndirilməsinə xidmət edir. İraq bazarı da ölkəmizin ixracatçıları üçün maraqlıdır, AZPROMO-nun icraçı direktoru Yusif Abdullayevin qeyd etdiyi kimi bir sıra qeyri-neft məhsullarının ixracında İraq bazarı cəlbedici görünür. Xüsusilə də tütün məhsullarından böyük asılı olan İraqa Azərbaycan şirkətlərinin daxil olması realdır. İraqın qızıl məhsullarından asılılığı da böyükdür, Azərbaycanın qızıl sənayesindəki yüksəliş və ixracını artırılması bu ölkəni potensial tərəfdaşa çevirir. Artıq bu ticari əməliyyatlar razılaşdırılıb və yaxın günlərdə İraqdan bir neçə böyük qızıl istehsalçısı və idxalçısı Azərbaycana səfər edəcək.Ölkəmiz İraqa mineral süfrə suları da ixrac etməyi planlaşdırır, su istehsalçısı ilə bağlanmış müqaviləyə əsasən, ilk ixrac təmin edilib. Bundan başqa, tikinti məhsulları, aliminium və qənnadı məmulatları ixracı çox önəmli istiqamət ola bilər.

İraq Orta Şərq-Asiya regionunda strateji coğrafi mövqeyə malikdir və böyük bir coğrafiyanın tranzit-nəqliyyat əlaqələrinin birləşməsində qovşaqlardan biridir. Bu baxımdan İraqın Orta Dəhlizə inteqrasiyası realdır və Azərbaycanla nəqliyyat sahəsində əlaqələrin artırılması da buna xidmət edir. İraq həm də Orta-Mərkəzi Asiya regionu ölkələri üçün də xüsusi tranzit qapısıdır. İranın və Azərbaycanın əsas yer aldığı "Şimal-Cənub" nəqliyyat dəhlizinə çıxış üşün də əlverişli geocoğrafi imkanlara malikdir. Rəsmi Bağdad dəfərlərlə regional dəhlizlərə inteqrasiya, o cümlədən "Şimal-Cənub" dəhlizinə qoşulmağa hazır olduğunu bəyan edib. Ona görə də, həm Şərq-Qərb, həm də Şimal-Cənub dəhlizilərinin strateji kəsişməsində mühüm mövqe tutan Azərbaycanın İraqla bu bağlantılarda sıx birləşməsi getdikcə aktuallaşır.

*ELBRUS CƏFƏRLİ*

# "Sağlam gələcək, xoşbəxt cəmiyyət"

Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2024-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq sentyabrın 19-da İsmayıllı rayonunda "Sağlam gələcək, xoşbəxt cəmiyyət" mövzusunda tədbir keçirilib.

Əvvəlcə İsmayıllı şəhərində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

İsmayıllı rayonu Heydər Əliyev adına Mədəniyyət Sarayında keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, İsmayıllı Rayon İcra Hakimiyyəti (RİH) başçısının sosial-iqtisadi məsələlər üzrə müavini Eyyub Musayev, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri, hüquq şöbəsinin müdiri Pakizə Abbasova, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxış edənlər narkomaniya ilə mübarizədə maarifləndirmənin əhəmiyyətli olduğunu bildirib, yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq üçün təbliğat işlərinin önəmindən bəhs ediblər. Vurğulanıb ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemlə sistemli mübarizə aparılması baxımından böyük önəm daşıyır. Qeyd olunub ki, sağlam cəmiyyət naminə zərərli vərdişlərə qarşı mübarizə hər zaman aktualdır. Müasir dövrdə isə gəncləri zərərli vərdişlərdən qorumaq mühüm çağırışdır. Gənclər daha çox bilik qazanmağa, sağlam həyat tərzinə üstünlük verməli, eyni zamanda, narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər.




Diqqətə çatdırılıb ki, yeniyetmə və gənclərimizin təlim-tərbiyəsi, elmə, təhsilə və idmana marağının artırılması onların zərərli vərdişlərdən çəkinməsində vacib faktordur. Qeyd olunub ki, bu gün müasir müstəqil Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində gənclər cəmiyyət həyatının bütün sahələrində, o cümlədən ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayırlar. Dövlətimizin başçısı gənclərin hərtərəfli inkişafı, onların sağlam ruhda, milli-mənəvi dəyərlər əsasında tərbiyəsi məsələlərini daim diqqət mərkəzində saxlayır. Sevindirici haldır ki, Azərbaycan gəncləri 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində və 2023-cü ildə həyata keçirilən bir günlük lokal xarakterli antiterror tədbirlərində şanlı ordumuzun sıralarında yüksək vətənpərvərlik, şücaət və qəhrəmanlıq göstəriblər.

İnteraktiv formada davam etdirilən tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunması onların beynəlxalq hüquq çərçivəsində müəyyənləşmiş fundamental haqlarından biridir. Bu qayıdış üçün bütün imkanlardan, o cümlədən beynəlxalq platformalardan istifadə olunur. Artıq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması kontekstində qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı beynəlxalq platformalarda da müzakirə predmetinə çevrilib.**

# Avropa təsisatları nədən narahatdır?

## Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri ATƏT-in və Avropa Şurasının rəhbərlərinə açıq məktub ünvanlayıblar

### 269 məsciddən yalnız biri...

Yeri gəlmişkən, sentyabrın 19-da Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri ATƏT-in fəaliyyətdə olan sədri İan Borqa və Avropa Şurasının Baş katibi Alən Berseyə açıq məktub ünvanlayıblar. Məktubda bildirilir ki, 36 ildir Ermənistandakı tarixi yurd yerlərindən, şəxsi evlərindən zorla çıxarılmış, qaçqın vəziyyətinə düşmüş yüz minlərlə azərbaycanlı hələ də İrəvana, Göyçəyə və digər tarixi məkanlara - Qərbi Azərbaycana qayıda bilmir. Tarixən azərbaycanlıların yaşadıqları Ermənistanda azərbaycanlılara məxsus maddi və mədəni irsin silinməsinə yönəlmiş sistemli kampaniya aparılıb. Bu qəsdən məhvetmə onilliklərdir davam edir. Ürək ağrısı ilə qeyd edirik ki, 1870-ci ildə Ermənistan ərazisində qeydiyyata alınan 269 məsciddən bu gün yalnız biri qalıb. Bundan başqa, azərbaycanlılara məxsus yüzlərlə qəbiristanlıq da sistemli şəkildə məhv edilib.

### İrəvandakı Təpəbaşı məhəlləsinin tamamilə dağıdılması planlaşdırılır

Məktubda diqqətə çatdırılır ki, Ermənistan Respublikasının paytaxtı İrəvan şəhəri vaxtilə Şəhər, Dəmirbulaq və Təpəbaşı kimi rayonlara bölünmüşdü: "Azərbaycanlılar bu ərazilərdə şəhərin ilkin formalaşmasından etibarən 20-ci əsrin sonlarına qədər yaşayıblar. Azərbaycanlılar tərəfindən tikilən və məskunlaşılan Təpəbaşı məhəlləsinin adı sonradan dəyişdirilərək "Kond" adlandırılıb. Bu məhəllə Ermənistanda azərbaycanlılara məxsus mədəni irsin sağ qalan azsaylı nümunələrindən biridir. Lakin çox təəssüf ki, Ermənistan hökumətinin Azərbaycan xalqının mədəni irsinin silinməsi istiqamətində apardığı sistemli işin tərkib hissəsi olaraq qeyd edilən Təpəbaşı məhəlləsinin tamamilə dağıdılması planlaşdırılır. Bu ilin mayında biz - Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri UNESCO-nun Baş direktoru xanım Odri Azuleyə açıq məktub ünvanlayaraq xahiş etdik ki, Təpəbaşı məhəlləsinin dağıdılmasının qarşısını almaq üçün təsirli tədbirlər görülsün, əraziyə faktaraşdırıcı missiya göndərilsin. Biz dağıntıların dayandırılması və bərpası üçün beynəlxalq hüququn normaları və mexanizmləri çərçivəsində UNESCO ilə dialoqa, qarşılıqlı fəaliyyətə hazır olduğumuzu bəyan etdik, UNESCO-nu dünya mədəni irsinin unikal nümunəsi kimi Təpəbaşı məhəlləsini öz mühafizəsinə götürməyə çağırdıq, monitorinq işlərində UNESCO ilə sıx işləməyə hazır olduğumuzu bildirdik. Ancaq bu müraciətimizə nə UNESCO-dan cavab gəldi, nə də insan hüquqlarının qorunmasını rəhbər tutduğunu elan etmiş Avropa Şurasından, ATƏT-dən bu məsələ barədə hər hansı narahatlıq bəyanatını gördük".




### Beynəlxalq təşkilatlar abidələrimizin məhv edilməsinə səssiz qalır

Bundan əlavə, Azərbaycan xalqının Ermənistan ərazisindəki maddi irsinin dəyərli nümunələrindən olan İrəvan qalası, Xan sarayı, Abbas Mirzə məscidi və bir çox başqa abidələr tamamilə dağıdılıb. İrəvan xanı Hüseyn Əli Xan tərəfindən 18-ci əsrdə tikilmiş Göy məscidin isə tarixi təhrif edilərək guya başqa xalqa məxsus məscid kimi təqdim olunur. Ermənistan tərəfindən azərbaycanlılara məxsus mədəniyyət abidələrinin dağıdılması bir çox beynəlxalq konvensiyaları, o cümlədən İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktı, Ümumdünya İrs Konvensiyasını, Qeyri-maddi mədəni irsin qorunması və İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanı kobud şəkildə pozur.

ATƏT-in və Avropa Şurasının rəhbərlərinin diqqətinə bu da çatdırılıb ki, Ermənistanın etnik təmizləmə siyasəti Azərbaycanın qeyri-maddi mədəni irsinə ciddi ziyan vurub. Məsələn, UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs siyahısına salınmış Azərbaycan aşıq sənətinin əsas məktəblərindən olan Göyçə aşıq məktəbi hazırda doğma köklərindən uzaq düşüb. Ermənistan tanınmış azərbaycanlı sənətkar Aşıq Ələsgərin doğulduğu Göyçə mahalındakı abidəsini və məzarını dağıdıb. Bu, Azərbaycan xalqına qarşı nümayişkaranə təhqirdir.

### Cəmiyyətimiz ATƏT-ə və Avropa Şurasına inamını niyə itirib?

"Ermənistan tərəfindən Azərbaycanın mədəni irsinin davamlı şəkildə məhv edilməsi bizim mədəni irsdən istifadə və mədəniyyətimizi qoruma hüququmuzu pozur. Bu davranışlar regionda sülh, dialoq və barışıq səylərinə ciddi maneə törədir. Qeyd edilən məsələlərlə bağlı həm Avropa Şurasının, həm də ATƏT-in açıq mövqe ortaya qoymasını tələb edirik. Çünki indiki davranışın Azərbaycan torpaqlarının işğal altında saxlandığı illərdə Ermənistan tərəfindən törədilən müharibə cinayətlərinə, azərbaycanlı köçkünlərin pozulmuş fundamental insan hüquq və azadlıqlarına göstərilən münasibətdən heç bir fərqi yoxdur. Azərbaycan cəmiyyəti haqlı olaraq ATƏT-ə, Avropa Şurasına və UNESCO-ya inamını itirib. Biz görürük ki, bu günlərdə 1 illiyini qeyd etdiyimiz antiterror əməliyyatından qısa müddət sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinə qarşı qərəzli addım atdı. Bu rəftar və münasibət qəbuledilməzdir, onu təşkil edənlər öz məqsədlərinə nail ola bilməyəcəklər",- deyə bildirən məktub müəllifləri qeyd ediblər ki, ATƏT, Avropa Şurası məsələlərə ikili standartlar prizmasından yanaşmamalı, obyektiv və qərəzsiz olmalıdır. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri olaraq məktub müəllifləri bütün aidiyyəti təşkilatlarla bu istiqamətdə əməkdaşlığa, əlavə məlumat verməyə, azərbaycanlıların Ermənistandakı maddi və mədəni irsinin qorunması üçün səylərə vasitəçilik etməyə hazır olduqlarını bəyan ediblər. "Bu xüsusda sizi Ermənistanı beynəlxalq öhdəliklərinə uyğun olaraq Azərbaycan xalqına məxsus mədəni irsin bərpasına və qorunmasına təşviq etməyə çağırırıq. Ermənistan BMT Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində əksini tapmış prinsiplərə uyğun olaraq, azərbaycanlıların mədəni-tarixi irsinin müdafiəsini, onların öz ata-baba yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışını təmin etməlidir",-deyə məktubda vurğulanıb.

Qeyd edək ki, ATƏT-in və Avropa Şurasının rəhbərlərinə açıq məktubu Qərbi Azərbaycan İcması, İnsan Hüquqlarının Təşviqi Mərkəzi İctimai Birliyi, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Milli Qeyri-Hökumət Təşkilatları Forumu, "İrəvan Mədəni İrsinin Təbliği" İctimai Birliyi, "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi, D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti də daxil olmaqla 24 qeyri-hökumət təşkilatı ünvanlayıb.

Məlumdur ki, qərbi azərbaycanlıların qayıdışı məsələsinin beynəlxalq müstəviyə çıxarılması Ermənistanı çox ciddi şəkildə narahat edir. Əgər belə olmasaydı, bu ölkənin rəsmilərində, həm də erməni cəmiyyətinin müxtəlif nümayəndələrində bu mövzu təşviş yaratmazdı. Amma onların nə deməsindən asılı olmayaraq qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı mütləq gerçəkləşməlidir. Təsadüfi deyil ki, indiyədək Qərbi Azərbaycan İcması BMT Baş katibinə, Avropa İttifaqı Şurasının Prezidentinə, UNESCO-ya və digər beynəlxalq təşkilatlara müraciətlər edib. Bu müraciətlərin bir neçəsi BMT-nin rəsmi sənədi kimi yayılıb. Bütün bunlar qayıdış istiqamətində sistemli tədbirlər görüldüyünü təsdiq edir. Yeri gəlmişkən, indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış Konsepsiyası da qəbul edilib. Konsepsiyada qayıdışla bağlı əsas məqsəd və prinsiplər müəyyən olunub.

*Nardar BAYRAMLI*

# Qafqazın əsiri...

## Qərbin yeni taktikası: Ermənistan hansı parametrlər üzrə seçilib? İrəvana silah ötürən, Zəngəzura əsgər yığanların "ticari dəstək kampaniyası"...

### ABŞ və Aİ bölgəyə nüfuz mexanizmini müəyyənləşdiriblər...

2020-ci il Vətən müharibəsi və 2023-cü il antitierror əməliyyatlarından sonra Azərbaycanın bölgədə yaratdığı siyasi situasiya diqqətlə izlənilir. Qlobal dünyanın aparıcı aktorları bölgənin gələcək perspektivini gördükləri üçün müdaxilə mexanizmləri axtarırlar. Son proseslər də bunun göstəricisidir. Xüsusilə, ABŞ və Aİ-nin Ermənistan üzərindən oynamağa çalışdığı siyasi oyunlar açıq xarakter daşıyır. Hər iki güc İrəvanın xəyanətkar və əmrəhazır xarakterindən "yararlanmağa" çalışırlar.

Bir neçə ay öncə Aİ - ABŞ - Ermənistan üçtərəfli görüşü və imzalanan üçtərəfli bəyanat əslində, İrəvanın Qərb orbitinə tam şəkildə çəkilməsi üçün atılan addım idi. Götürülən "öhdəliyin" üzdə iqtisadi-ticari mahiyyətlə maskalanması, alt qatdakı fərqli motivləri gizlədə bilmədi. Qısa zamanda həm ABŞ-ın, həm də Fransanın timsalında Aİ-nin Ermənistanla bağlı əsl planları üzə çıxdı...

### İqtisadiyyatı olmayan "iqtisadi tərəfdaş"...

İlk növbədə ABŞ-Ermənistan və ya Aİ-Ermənistan çərçivəsində "ticari əməkdaşlıq", "iqtisadi tərəfdaşlıq" kimi anlayışlar boş fikirlərdir - xüsusilə, ABŞ regionun ən zəif iqtisadiyyatına malik, heç bir regional və ya qlobal layihələrdə iştirak etməyən, özünü Şərq-Qərb tranzit xəttindən kənarda saxlamaqla böyük bir logistik kəmərin hissəsinə çevrilə bilməyən, nəhayət hərbi-siyasi durumuna görə ən aşağı yerlərdə sürünən Ermənistanda "nə tapdığını" izah edə bilmir və edə də bilməz. Beləliklə, ilk raunddaca Qərbin Ermənistan üzərindən bölgədə yaratmağa çalışdığı qeyri-standart situasiyanın çoxşaxəliliyi göz oxşayır - ABŞ-ın regionda 2 minlik kontingentdən ibarət ən böyük səfirliyi Ermənistanda saxlamaqla öz niyyətini ortaya qoyur. Ermənistanın "siyasi-iqtisadi vaciblik indeksi" hansı dərəcədədir ki, ABŞ kimi siyasi güc Cənubi Qafqazda məhz Ermənistanı özünün "diplomatik səngəri"nə çevirib?

Elə bu amil post-müharibə dövründə Ermənistana olan "marağın" yalnızca Qərbin İrəvan üzərindən oyunlardan ibarət olmasını tam ifşa edir. Başqa sözlə, ard-arda iki ildir ABŞ ilə birgə "hərbi təlim" keçəcəyini "bəyan edən", sonradan isə bu kart üzərindən özünü Vaşinqtonun "müttəfiqi" kimi qələmə verən Ermənistan qlobal ictimai rəyə məhz "müttəfiq" kimi sırınır.

### Ermənistana zorla "seçdirilən yol"...

Ortada qəribə bir paradoks mövcuddur - rəsmi Vaşinqton əlaqələrin yalnız "iqtisadi" xarakter daşıdığını və Ermənistanın özünün "istəyi" olmasını israr edir. Amma ortada təkzibolunmaz faktlar var. Məsələn, ABŞ Dövlət Departamentinin AZƏRTAC-ın ABŞ müxbirinin sorğusuna cavabına diqqət yetirək: regionda Ermənistanın hərbiləşdirilməsi siyasətinin, keçmiş ATƏT-in Minsk qrupu ölkələrinin Ermənistanı dəstəkləməyə davam etməsinin və ABŞ və Avropa İttifaqının artan hərbi dəstəyinin Azərbaycanla Ermənistan arasında davam edən sülh sazişi danışıqlarına təsiri, o cümlədən Ermənistanla Rusiya arasında artan ticarət və hərbi əlaqələrin daha geniş regionda stabilliyə təhdid təşkil etməsi ilə bağlı sorğuya cavab olaraq bildirilib ki, ABŞ Ermənistanın özünün seçdiyi münasibətləri davam etdirməklə bağlı suveren hüququna hörmət edir.

Əslində, Dövlət Departamenti bu bir cümlədə çox şey ifadə edib - son günlərdə Zəngəzur ərazisinə əsgər toplamaq, gizli şəkildə Zvarnots hava limanına enən təyyarələrin bortlarında daşınan silah-sursat və texnika, hərbi təlimlər, Aİ-nin kəşfiyyatçı missiyasının fəaliyyəti, Fransanın İrəvanı aktiv silahlandırması birmənalı şəkildə "Ermənistanın özünün seçidiyi yol" imiş. Başqa sözlə, ABŞ müəyyən müddət regionda sülhün formalaşmasına dəstək verməyə çalışan ölkə kimi Ermənistanın bu cür müharibə hazırlığına start verdiyini demir - buna göz yumur. Belə olan halda, Vaşinqton hansı sülhdən danışırdı? Demək ki, İrəvan 30 il ərzində olduğu kimi, yenə də ABŞ-ın bütün "çağırışlarını" qulaq ardına vurur.

Amma bunun belə olmadığı məlum məsələdir. Yuxarıda qeyd edilən hazırlıqların hər biri konkret olaraq ABŞ-ın qurduğu plan üzrə irəliləyir. ABŞ bölgədə ən zəif bənd olan Ermənistanı planlarının əsirinə çevirib - bu fəaliyyətini isə "İrəvanın seçdiyi yol" və ya "Qərbə inteqrasiya" adı altında pərdələməyə çalışır.



Dövlət Departamenti sorğuya cavabında ABŞ-ın Ermənistana yardımlarını artırması məsələsinə də "toxunub" - bildirib ki, ABŞ-ın bu ölkəyə yardımı onun demokratik və iqtisadi inkişafını artırmaq, regional iqtisadiyyata inteqrasiyanı gücləndirmək, ticarəti şaxələndirmək və mənfi təsirlər qarşısında dayanıqlılığını gücləndirməyə xidmət edir.

Maraqlıdır, ABŞ hansı yolla bunu etməyə çalışır - Ermənistana gizli əsgər yollamaq iqtisadi inkişafa dəstək adlanırmı? Və ya Ermənistanı silahlandırmaq "regional iqtisadiyyata inteqrasiya" sayılırmı? Nəhayət, Ermənistanı sülhdən uzaqlaşdırmaq ticarəti şaxələndirmək hesab edilirmi?

### İkili paradoks: hərbi yardımlar nə vaxtdan iqtisadi inkişafa dəstək adlanır?

Əgər ABŞ hökuməti həqiqətən də Dövlət Departamentinin bu "mövqeyi"ni bölüşürsə, məntiqlə Ermənistanı Azərbaycanın yaratdığı yeni ticari-iqtisadi reallıqlarda fəal yer almağa çağırmalıdır. Azərbaycanın səyi ilə bölgədə mühüm iqtisadi münasibətlər sistemi formalaşır - müzakirə edilən Zəngəzur dəhlizini açmaqla Ermənistan dünyanın yeni ticari yolunun ən mühüm stansiyalarından birinə çevrilə bilər. Və nəhayət, Ermənistan silah-sursat almağa xərclədiyi pulları niyə infrastrukturlarının daha da təkmilləşdirilməsinə yönəltmir? Axı, belə olan təqdirdə regional iqtisadiyyata daha asan inteqrasiya etmək mümkündür.

Bütün faktlar onu göstərir ki, ABŞ Dövlət Departamentinin bu mövqeyi nə həqiqətə uyğun, nə də səmimi yanaşma deyil. ABŞ özünün iqtisadi maraqları üçün Ermənistanı "arxa bağçası" edir. Regiona nüfuz etmək üçün bu iradəsiz, öz milli maraqlarını müdafiə etməyən, xəyanəti peşəyə çevirən ölkənin "xidmətindən" istifadə edir. Eyni sözləri Aİ üçün də demək olar - Fransanın timsalında separatizmin açıq dəstəklənməsi, Ermənistanı müharibəyə hazırlaşdırmaq, revanşizmi qızışdırmaq bu ölkəni "inkişaf etdirmək planı" sayıla bilməz. Bu, yalnız və yalnız Ermənistanı məhv etmək planıdır...

### İrəvanı sülhdən uzaqlaşdıranlar - silah verilməsə, əsgər toplanmasa...

Dövlət Departamentinin açıqlamasında sülh prosesi ilə bağlı məsələlər də yer alıb. Qeyd olunub ki, Birləşmiş Ştatlar Azərbaycanın və Ermənistanın regionda təhlükəsizliyi və tərəqqini təmin edəcəyinə inanır, davamlı və layiqli sülh sazişinə nail olmaq səylərini dəstəkləyir: "Tərəflər razılaşmanın yekunlaşdırılması istiqamətində əhəmiyyətli irəliləyiş əldə ediblər və ABŞ bu prosesi istənilən şəkildə dəstəkləməyə sadiqdir".

Rəsmi Vaşinqton unutmamalıdır ki, son dövrlərdə əldə olunan bütün razılaşmalar, tapılan uzlaşma nöqtələri məhz Azərbycanın səyi və qətiyyəti əsasında ortaya qoyulub. İstər müvafiq delimitasiya komissiyalarının məlum görüşlərində əldə olunan razılaşmalar, istər sülh prosesindəki irəliləyişlər birmənalı şəkildə Azərbaycanın ortaya qoyduğu iradəyə əsaslanır. 2022-ci ildə Azərbaycanın təşəbbüsü ilə başlanan sülh prosesinin ədalətli və hüquqi nəticə ilə yekunlaşması istiqamətində rəsmi Bakı fəal iş aparır. Bu məsələdə də Ermənistanın mövqeyindəki bəzi yanaşmalar işə mane olmaqdadır: məsələn, Ermənistan Konstitusiyasında Azərbaycanın ərazibütövlüyünə qarşı yer alan müddəaların çıxarılması sülh üçün əsas şərtlərdən biridir. ABŞ tərəfinin də qeyd etdiyi kimi, Ermənistan sülhə yanaşmasında səmimidirsə, niyə bu düzəlişi yekunlaşdırmır? Yenə də maraqlı bir paradoks yaranır - Ermənistan ABŞ-ın və Aİ-nin aşkar - gizli dəstəyi, silahları və texnikası ilə sülhdən yayınır. Əgər adıçəkilən güclər Ermənistanı şirnikləndirməsələr, ona silah tədarükü etməsələr, İrəvan çoxdan sülhlə bağlı mövqeyini tam şəkildə ortaya qoyardı.

Beləliklə, bir daha məlum olur ki, böyük güclərin oynadığı oyunun iradəsiz alətinə çevrilmiş Ermənistan fərqli maraqların təmininə yönləndirilib. Ermənistan cəmiyyəti və siyasi hakimiyyəti anlamılıdr ki, onu silahlandıranlar, gizli şəkildə müharibəyə sürükləyənlər ona ən böyük düşmənçilik edənlərdir - bu ölkələr və ya təşkilatlar Ermənistanın yenə də dalan ölkə qalmasını, regional inkişaf tempindən uzaq düşməsini istəyirlər...

*Pərviz SADAYOĞLU*

# Zelenskinin ABŞ-a səfəri..

## Ukrayna lideri prezidentliyə namizədlərlə hansı məsələləri müzakirə edəcək?



BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Rusiya-Ukrayna müharibəsi əsas müzakirə mövzularından biri olacaq. Ukrayna Prezidenti Volodimir Zelenski sessiyada iştirak etmək üçün Birləşmiş Ştatlara səfər edəcək. O, sentyabrın 24-də BMT Təhlükəsizlik Şurasının iclasında iştirak edəcək. Təhlükəsizlik Şurasının iclası Rusiya-Ukrayna müharibəsinə həsr olunacaq və dünya liderlərinin BMT Baş Assambleyasının illik sessiyasında Nyu-Yorkda olacağı vaxtda keçiriləcək. İclas ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Cənubi Koreya və Malta tərəfindən çağırılıb. Sentyabrın 25-də isə Zelenski BMT Baş Assambleyasında çıxış edərək, Ukrayna üzrə sülh planını təqdim edəcək.

ABŞ Prezidenti Cozef Bayden isə BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində dünya liderləri ilə ikitərəfli görüşlər keçirəcək. Prezidentin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan Baydenin Volodimir Zelenski ilə görüşəyini də təsdiqləyib. Bundan əlavə, prezidentlik uğrunda mübarizə aparan Kamala Harrislə Donald Trampın da Zelenski ilə görüşü gözlənilir. Belə ki, ABŞ-ın keçmiş lideri, Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp jurnalistlərin "Zelenski ilə görüşəcəksinizmi?" sualına "Böyük ehtimal ki, bəli" cavabını verib. ABŞ-ın vitse-prezidenti və Demokratlar Partiyasından prezidentliyə namizəd Kamala Harris də gələn həftə ABŞ-a səfəri zamanı Volodimir Zelenski ilə görüşməyi planlaşdırır. Bu barədə Bloomberg agentliyi məlumat yayıb.

Amma məsələ ondadır ki, Trampla indiki ABŞ adminsitrasiyasının Ukrayna böhranının həlli üçün yanaşmaları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. D.Tramp dövlət başçısı seçiləcəyi təqdirdə müharibəyə tezliklə son qoyacağını bəyan edib. Hələ bu ilin iyul ayında Tramp Zelenski ilə telefon söhbətini "çox yaxşı telefon danışığı" kimi dəyərləndirmişdi. "ABŞ-ın növbəti prezidenti olaraq mən dünyaya sülh gətirəcəyəm. Çoxlu sayda insanın həlak olduğu və saysız-hesabsız günahsız ailənin didərgin düşdüyü bu müharibəyə son qoyacağam", - deyə keçmiş dövlət başçısı bildirmişdi. Tramp iddia edib ki, onun prezidentliyi dövründə müharibə təhlükəsi olmayıb və Rusiya heç vaxt Ukraynanı işğal etməyəcəkdi.

Respublikaçı namizədin fikrincə, Ukrayna münaqişəsi zamanı dünya daha təhlükəli olub və buna görə ABŞ-ın hazırkı prezidenti Co Baydeni günahlandırıb. Tramp hesab edir ki, Bayden öz hərəkətləri ilə Rusiya və Çinin yaxınlaşmasına töhfə verib və hazırda iki ölkə sıx ittifaqda fəaliyyət göstərir. "Bloomberg" isə yazıb ki, D.Trampın planına Ukraynanı hərbi yardımı kəsmək təhlükəsi altında Moskva ilə danışıqlara məcbur etmək daxildir. Digər tərəfdən, Tramp Ukraynaya silah tədarükünü artıracağı ilə hədələməklə Rusiyanı danışıqlar masasına oturtmaq niyyətindədir.

Hər iki namizəd daha əvvəl Ukraynadakı müharibə ilə bağlı strategiyalarını açıqlasa da, əslində, həm Donald Trampın, həm də Kamala Harrisin açıq bəyanatları onların necə hərəkət edəcəklərini əks etdirmir. Baydenin seçki kampaniyasından geri çəkilməsindən sonra Kamala Harris Ukraynadakı müharibə ilə bağlı hələlik heç bir ciddi açıqlama verməyib. Bununla belə, o, bu ilin iyununda İsveçrədə keçirilən Qlobal Sülh Sammitində çıxışı zamanı bildirib ki, Amerikanın strateji maraqları Ukraynaya güclü dəstəkdir.

Bir neçə gün öncə Kamala Harrislə Donald Tramp arasında keçirilən debatda da Ukrayna müharibəsinə toxunulub. Tramp bir daha bəyan edib ki, o, dövlət başçısı seçilərsə, andiçmədən əvvəl Rusiya-Ukrayna münaqişəsinə son qoya biləcək. Ukraynadakı münaqişəni dəqiq necə bitirməyi planlaşdırdığı sualına cavab verən Tramp Rusiya və Ukrayna prezidentləri arasında danışıqları təşkil edəcəyinə söz verib.

Kamala Harris isə cavab olaraq bildirib ki, Tramp ABŞ prezidenti olsaydı, Ukrayna artıq uduzmuş olardı. O qeyd edib ki, Co Baydenin dövründə ABŞ Ukrayna tərəfinə kömək etmək üçün 50 ölkədən ibarət koalisiya yarada bilib: "Tramp prezident olsaydı, Putin artıq Kiyevdə oturardı. Və bu təkcə Ukraynaya aid deyil. Ona görə də bütün müttəfiqlərimiz onun prezident olmamasına sevinirlər". Harris əmin edib ki, Trampın Ukrayna cəbhəsində hərbi əməliyyatları 24 saat ərzində dayandırmaq planı yalnız Kiyevə yardımdan imtina etməkdən ibarətdir.

Bütün bunların fonunda Zelenski ABŞ-a səfəri zamanı Ukraynanın NATO və Avropa İttifaqına üzvlüyünə dəstək almağa çalışacaq. Eyni zamanda, Zelenski iqtisadiyyat və təhlükəsizliklə bağlı sazişlər bağlayacaq, həmçinin sülh planı çərçivəsində Ukrayna Silahlı Qüvvələri üçün silah təchizatını müzakirə edəcək.

*N.BAYRAMLI*

# Yeni Kaledoniyada insanlıq faciəsi

**Fransa hakimiyyətinin neokolonializm siyasətini daha da sərtləşdirərək müstəmləkə ölkələrinin sərvətlərini ən eybəcər formada mənimsəməsi, yerli xalqları diskriminasiya və assimilyasiyaya məruz qoması müstəmləkə ölkələrində ciddi etirazlarla qarşılanır. Ayrı-ayrı ölkələrdə Yelisey Sarayının siyasətindən narazılıq ifadə olunan şüarlar səsləndirilir, Fransanın bayrağı, digər dövlət rəmzləri yandırılaraq təhqir olunur. İzlənilən proseslərdən hasil olan qənaət belədir: Artıq Fransanın Afrikada, dənizaşırı ərazilərdə hökmranlığının sonu gəlib, Yelisey Sarayı bu yerlərdə mövcudluğundan könüllü şəkildə imtina etməlidir. Dənizaşırı ərazilərdə Fransanın əl çəkmək istəmədiyi sümürmə siyasətinə etirazların genişləndiyi və gərginliyin pik həddədək artdığı ölkələrdən biri də Yeni Kaledoniyadır. Bu günlərdə burada növbəti faciə yaşanıb.**

### Ölü sayı 13-ə çatıb

Xarici KİV-də yayılan məlumatlara görə, Yeni Kaledoniyada polisin gecə keçirdiyi əməliyyat zamanı daha iki nəfər güllələnib. Yeni Kaledoniyada may ayında yerli kanak xalqı və Fransa tərəfdarları arasında iğtişaşlar başlayıb. Bildirilir ki, beləliklə, iyunda dayandırılan mübahisəli seçki islahatının səbəb olduğu böhranın başlanğıcından bəri ölənlərin sayı 13 nəfərə çatıb.

Fransa və Yeni Kaledoniya arasındakı ziddiyyətlər uzun illəri əhatə edir. Fransız missionerlərin Yeni Kaledoniyaya ayaq açması XIX əsrin ortalarına təsadüf edir. Missionerlərin adaya gəlişi ilə yerli sakinlərin qara günləri başlayıb. 1853-cü ildə isə Fransa adanı özünün müstəmləkəsi elan edib. Ada sakinləri ötən əsrin 80-ci illərindən etibarən Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etirazlara başlayıblar. Onların yeganə məqsədi Fransanın sərhəd tanımayan zülmündən birdəfəlik qurtulmaqdır.

Kanak xalqının budəfəki etirazlarına səbəb isə Emmanuel Makron hakimiyyətinin Yeni Kaledoniya ilə bağlı mürtəce planı həyata keçirməyə başlamasıdır. Nəzərdə tutulan "konstitusiya islahatlarının" yeganə məqsədi Yeni Kaledoniyada aborogen xalqın hüquqlarını məhdudlaşdırmaq, bunun əksinə olaraq gəlmə fransızların hüquqlarını genişləndirməkdir. Səsvermə sisteminin dəyişdirilməsi ilə bağlı Fransa parlamentinin müzakirəsinə çıxarılan qanun layihəsinə görə, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları əyalət seçkilərində səs verə biləcəklər. Fransa hakimiyyətinin Yeni Kaledoniyada gəlmələrin seçki hüquqlarını genişləndirmək planı çox doğru olaraq elektoratın tərkibini dəyişmək hədəfi anlamında qəbul olunur. Bu isə yerli kanak xalqının mənafeyinə ziddir. Buna görə də kanaklar müvafiq qanunun qəbul ediləcəyi təqdirdə öz tarixi vətənlərində ikinci dərəcəli etnik qrupa çevriləcəklərini düşünürlər və bunun qarşısını almaq üçün ayağa qalxıblar. Makron təzyiqlər qarşısında "islahatlar" prosedurunu müvəqqəti olaraq dondursa da, kanak xalqı bunun hiyləgər bir gediş olduğunu yaxşı başa düşür və etirazları davam etdirir. Paytaxtada baş verən son faciə də etirazların birində yaşanıb.



### Digər müstəmləkələr də ayağa qalxıblar

Fransa ərazisinin 18 faizini dənizaşırı koloniyalar təşkil edir. Bu torpaqlarda təxminən 2,6 milyon nəfər əhali yaşayır. Koloniyalar müxtəlif siyasi statuslara malikdir. Müstəmləkələrin siyahısına Atlantik okeanında yerləşən Qvadelupa, Martinika, Sen-Martin, Sen-Bartelemi, Sent-Pyer və Mikelon, Hind okeanında Reunion, Mayotte və Fransız Cənub və Antarktika əraziləri, Sakit okeanda Fransız Polineziyası, Yeni Kaledoniya, Uollis və Futuna, Cənubi Amerikada isə Fransız Qvianası daxildir. Onların ən yaxını Fransadan təxminən 4 min kilometr və ən uzaqda olanı isə 17 min kilometr məsafədə yerləşir.

Bu gün Yeni Kaledoniyada olduğu kimi, digər dənizaşırı ərazilərdə də müqavimət hərəkatı genişlənib. Fransız Qvianasında daha geniş muxtariyyət tələbləri artır. Fransız Qvianası Konqresi 2020-ci ildə xüsusi statusla daha çox muxtariyyət tələb etmək üçün səs verib. Sakinlərin tələbinə baxmayaraq, 4 ilə yaxındır ki, konstitusiya tənzimlənməsi ilə bağlı Paris administrasiyası ilə danışıqlarda heç bir irəliləyiş əldə olunmayıb.

Fransadan təxminən 7 min kilometr uzaqlıqda yerləşən və 400 min nəfər əhalisi olan Karib dənizindəki Qvadelupa adasında yoxsulluq, cinayətkarlıq ən yüksək həddə çatıb. Adada muxtariyyət müzakirələri yenidən diqqət mərkəzində olarkən, Fransa rəsmiləri Parisin muxtariyyət üzrə danışıqlara hazır olduğunu desə də, Yelisey Sarayı hələlik bu istiqamətdə konkret addımlar atmağa tələsmir.

Digər bir ada ölkəsində - Martinik departamentində vəziyyət getdikcə ağrlaşır. Son günlərdə burada qiymət artımına qarşı etirazlar polislə toqquşmaya çevrilib. Ticarətçilər yalnız Martinikada tətbiq edilən xüsusi dəniz vergisinin ləğvini tələb edirlər.

*MÜBARİZ*

# Pandemiyadan sonra ilk dəfə...

## ABŞ hökuməti uçot dərəcəsini aşağı salmaqla qlobal bazarda ajiotaja səbəb olub

**ABŞ-ın Mərkəzi bankı funksiyasını yerinə yetirən Federal Ehtiyatlar Sistemi (FED) 4 ildə ilk dəfə baza uçot dərəcəsini azaldıb. Uçot dərəcəsi 0,5 faiz azaldılaraq, 5,25-5,5 faiz dərəcəsindən 4,75-5 faiz dərəcəsinə endirilib. FED 2020-ci ildən sonra 4 ildə ilk dəfə aşağı faiz qərarını verməklə təkcə Amerikada deyil, qlobal maliyyə-bank sistemində böyük ajiotaj yaradan hadisəyə səbəb olub. Xatrladaq ki, uçor dərəcəsinin azalması ilə bağlı qərar 2020-ci ildə COVID-19 pandemiyasının yaratdığı iqtisadi çətinliklərə adekvat olaraq verilmişdi. FED həmin ilin mart ayında COVİD-19-un iqtisadi təsirləri ilə bağlı artan narahatlıqlar səbəbindən faiz dərəcələrini iki dəfə azaltmışdı. İnflyasiya ilə mübarizə strategiyası çərçivəsində faiz dərəcələri 1997-ci ildən sonra ən yüksək səviyyəyə qaldırılmışdı. FED pul siyasətini tənzimləmək vaxtının çatdığını bəyan edərək qarşıdakı dövrdə aşağı uçot siyasəti yürüdüləcəyini bəyan edib, 2024-cü ilin sonunda yenidən dəyişiklik istisna olunmur. Hətta 2025-ci ilin sonuna kimi faiz dəhlizinin mərhələlərlə 3,4 faizə qədər endiriləcəyi bildirilir.**

### FED-in aşağı uçot siyasətinin səbəbi nədir?

Hazırda qlobal bazar iştirakçılarını, maliyyə və ticarət treyderlərini maraqlandıran ən mühüm mövzu və sual budur ki, ABŞ-da son 4 ildə nə dəyişdi ki, FED bu addımı atmağa məcbur oldu. Hərçənd Ehtiyat Sisteminin analitikləri bu suala müəyyən qədər aydınlıq gətitriblər, FED sədri Cerom Pauel sentyabrın 18-də tarixi iclasından sonra verdiyi mesajlarla situasiyanı izah etməyə çalışıb. Cənab Pauelin fikirlərindən belə anlaşılır ki, faizlərini 0,50 faiz diapazonunda endirməsi iqtisadiyyatda geriləmənin nəticəsidir və vəziyyətin getdikcə narahatedici olması Mərkəzi bank sisteminin maliyyə sabitliyi ilə bağlı qayğılarını artırır. Reallıq budur ki, Bayden hökumətinin ilin əvvəlindən vəd etdiyi proqnozlar özünü doğrultmayıb və artım proqnozu süni xarakter daşıyır, iqtisadiyyat isə real rəqəmlərə söykənir, dövlətin iqtisadi strategiyası və planları real göstəricilər üzərinə qurulur, xüsusən də Mərkəzi bank institut maliyyə sabitliyinin dayanıqlılığını faktiki iqtisadi vəziyyətin təhlilinə əsasən nizamlayır. Reallıqda isə ABŞ-ın iqtisadi artım göstəriciləri zəifləyir, ölkədə iqtisadi və biznes fəallığı aşağı düşür, əmək bazarı zəifləyir. 2024-cü il iyul ayında 2,1 faiz proqnozlaşdırılan iqtisadi artım təxminən 1,9 faizə endirilib. İlin sonuna qədər bu rəqəmin daha da enəcəyi istisna edilmir. Hökumətin makroiqtisadi inkişaf proqnozlarında 2025-ci il üçün iqitisadi artımın bir neçə ay əvvəl 3 faiz ehtimal olunacağı açıqlansa da, proqnozun özünü doğrultmayacağı və inkişaf indeksinin 2 faiz səviyyəsində saxlanılmasına qərar verilib. Sözügedən rəqəmin özünü doğruldacağı da hələ şübhə doğurur. Bu məşğulluq göstəricilərində də dəyişikliklərə səbəb olub, hökumət işsizlik üzrə proqnozu 2024-cü ildə fərz edilən 4 faizdən 4,4 faizə, 2025-ci il üçün gözlənilən 4,2 faizdən 4,5 faizə yüksəldib.

Doğrudur, ölkədə inflyasiyanın azalması istisna deyil, ancaq inflyasiyanın aşağı düşməsində ölkədəki əmək məhsuldarlığının, pul bazasının azalması, biznesin və ticarətin həcmlərinin azalması da öz təsirlərini göstərməkdədir. Mərkəzi bank komandası əmək bazarındakı soyumanı sabitləşdirmək və aşağı faiz dərəcəsi qərarları ilə gələn ilin ortalarına qədər əmək məhsuldarlığının bərpasına nail olunacağını düşünür. Çünki əmək bazarının pisləşməsi digər riskləri artıra bilər, xüsusilə də alıcılıq və istehlak dövriyyəsinin azalması iqtisadi yığımların kəskin aşağı düşməsinə gətirib çıxarması ehtimalı böyükdür.

### Qlobal bazar necə reaksiya verir?

FED-in faizlərini azaltmasına dair qərarından sonra qlobal bazarda ajiotaj özünü dərhal göstərib. Sentyabrın 19-da dünya birjalarında maliyyə və investisiya alətlərinin, əsas əmtəə və qiymətli metalların qiymətlərində dəyişikliklər baş verməyə başlayıb. Dollar ucuzlaşması, qızılın isə bahalaşması ilk gündəcə hiss olunub, qızılın bir unsiyası 2600 dollara qədər tarixi maksimumu yeniləyib. Nyu-Yorkun "COMEX" əmtəə birjasında qızılın qiyməti ilə yanaşı, alıcılıq qabiliyyəti və tələblər də yüksəlib. ABŞ-ım investisiya bazarlarında və birjalarında ənənəvi sindrom həmişə özünü göstərib, FED faiz dərəcələrini artırdıqda qızılın qiyməti ucuzlaşır, faiz stavkasını aşağı saldıqda isə bahalaşır.

Baş verənlər qızıla həm investisiya kimi qlobal marağın artmasına, həm də bu sənaye sahəsinin investorlar üçün daha cəlbedici olmasına da stimullar yaradacaq. Qızıla investisiya aləti kimi beynəlxalq investorların marağı daha da artacaq və pul və səhmlərlə nisbətdə bu qiymətli metalın maliyyə-investisiya bazarlarında üstünlüyü bir qədər də önə çıxacaq. Qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhmlərdən daha çox qızıla investisiya qoymağı daha məqsədəuyğun sayacaq, eləcə də dünyanın iri şirkətləri, suveren fondları öz yığımlarını dollar və avro ilə nisbətdə qızıl portfelinə yerləşdirməyi faydalı hesab edəcəklər.



Dünyanın səhm və qiymətli kağızlar bazarının şəksiz lideri olan ABŞ-ın monetar alətlərdə etdiyi dəyişikliklərin bütün dünya maliyyə sisteminə təsir edəcəyi şübhəsizdir. FED-in bütün qərarları birja indekslərində azalma və ya artımları alovlandırır.

Müxtəlif birjalarda indekslərin də bahalaşması müşayiət olunub, aşağı faiz kursu kriptovalyuta sektorunun üzünü güldürməkdədir. ABŞ-nin səhm fyuçerslərinin kəskin artımı ilə yanaşı, "Bitcoin"un dəyəri sentyabrda ən maksimum səviyyəyə yüksələrək 62 min dolları da ötüb. Bu, cəmi bir gündə 4 faiz artım deməkdir. ABŞ-da 500 ən iri şirkətin səhmlərini birjalarda tənzimləyən "S&P 500" indeksi də əhəmiyyətli dərəcədə yüksəlib.

Ancaq ABŞ-ın maliyyə sistemində, eləcə də qlobal bazarlarda təsiredici rol oynayan aşağı faiz siyasətinin davamlı olacağı qeyri-müəyyən olaraq qalacaq. Çünki ABŞ-ın mövcud faiz qərarında geosiyasi amillərin də təsiri az rol oynamır. Qlobal miqyasda baş verən mürəkkəb geoiqtisadi proseslər və müxtəlif siyasi hadisələr, xüsusən də bu ölkədə prezident seçkiləri ərəfəsində hakimiyyətin iqtisadi itkilərini sığortalamaq, qarşıdakı dövrdə iqtisadi artımlarla cəmiyyətin inamını bərpa etmək və yaxşı iqtisadi gözləntilər əsasında seçkilərdə xüsusi statusa malik iri maliyyə holdinqlərində güvən yaratmaq və s. amillər hazırkı qərarın arxasında siyasi məqsədləri istisna etmir. Qeyd edək ki, bir müddət əvvəl

### FED-in qərarında siyasi motivlər gizlənib

beynəlxalq reytinq agentliyi "Fitch Ratings" ABŞ hökumətinin 2024-cü ilin ikinci yarısında uçot dərəcələrini endirəcəyinə dair xəbərlər yaymışdı və bunun arxasında payız aylarında ölkədə prezident seçkiləri ilə bağlı siyasi mübarizənin artmasının dayanmasını istisna etməmişdi. Agentliyin vurğuladığı kimi daxili siyasətdə gərginliklərin davam etməsi hökuməti aşağı faiz dəhlizinə fokuslanmağa məcbur edir, yəni Mərkəzi Bankın iqtisadi qərarlarında siyasilik də az rol oynamır.

Əgər faiz dərəcəsindəki korrektələrin 3-cü rübün yekununda ABŞ-ın maliyyə sistemində əhəmiyyətli dəyişiklik yaratması mümkün olmasa sözsüz ki, bu cür siyasi addımların hakimiyyətin siyasətini təşviq edən komanda üçün heç bir faydası olmayacaq. Bu baxımdan hakimiyyət dəyişikliyi və yeni iqtisadi komandanın FED-in aşağı faiz siyasətini yürütmək niyyətini dəstəkləyəcəyi də şübhə doğurur. Bir sözlə, yaxın aylarda bu ölkədə baş verən siyasi dəyişikliklərdən sonra iqtisadi sektorlara və qlobala bazarlardakı vəziyyət də tam müəyyənləşəcək.

***ELBRUS***

# Saçlarını Parisdə isladıb İrəvanda qırxdıranlar...

## Yelisey Sarayı - İrəvan ekspressi
## Yaxud Ermənistanın fəlakət anı yaxınlaşır

**Fransa rəsmilərinin Paris - İrəvan marşrutunu bir növ su yoluna döndərdikləri hər kəsə bəllidir. Prezident Emmanuel Makronun komandasında yer alan yüksək çinli məmurlar çox tez-tez saçlarını Parisdə isladıb İrəvanda qırxdırırlar. Son olaraq Fransadan Ermənistana xarici işlər naziri Stefan Sejurne "təşrif gətirib". Fransalı nazirlə təxminən eyni vaxtda İrəvan Avropadan daha bir qonaq - Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okamponu da qəbul edib. Avropa İttifaqı (Aİ) məkanının lider dövlətlərindən olan Fransa üçün uzaq Cənubi Qafqazın kiçik və autsayder ölkəsi Ermənistan bu qədərmi vazkeçilməzdir? Bunu təsdiqləmək mümkün deyil. Çünki ən azından son 30 illik müstəqillik tarixinin təcrübəsi də göstərir ki, resursları və güclü iqtisadi potensialı olmayan Ermənistan nə qonşuluqda, nə də uzaq xaricdə yerləşən heç bir dövlətə fayda vermək iqtidarında deyil. Başqalarının hesabına yaşamaq və aldıqlarının əvəzini qaytarmaq barədə düşünməmək Ermənistan dövləti və cəmiyyəti üçün bir doğma, ənənəyə çevrilib. Bu forpost ölkənin yeganə cəlbediciliyi onun maşa, siyasi alət funksiyasını yüksək səviyyədə yerinə yetirmək kimi fəövqəladə qabiliyyəti ilə bağlıdır ki, imperialist maraqlar güdən, hər vəchlə regionda mövcudluqlarına nail olmaq istəyən dövlətlər, o cümlədən də Fransa məhz bu cəhətə görə Ermənistana sonsuz nəvaziş göstərir. Yelisey Sarayının timsalında, həmçinin Fransadakı güclü erməni lobbisinin siyasi hakimiyyətə təsirlərini də yaddan çıxartmaq olmaz. Bütün bu kimi məqamları nazir Stefan Sejürnenin və sabiq prokuror Luis Okamponun İrəvanda səsləndirdikləri fikirlər bir daha təsdiqləyir.**

### Rəsmi Parisin daha da intensivləşən anti-Azərbaycan ritorikası

Tarixdən inqilablar beşiyi kimi tanınan Fransa özünə "Azadlıq, bərabərlik və qardaşlıq" şüarını seçib. Di gəl ki, bu gün Yelisey Sarayının siyasətində bu gəlişigözəl tezislərdən əsər-əlamət yoxdur. E.Makron hakimiyyətinin Cənubi Qafqaz ölkələrinə, konkret desək, Azərbaycana və Ermənistana münasibəti tipik ikili standartlar nümunəsidir. Rəsmi Parisin 44 günlük müharibədən əvvəlki və sonrakı mərhələlərdə nümayiş etdirdiyi yanaşmalardan hasil olan qənaət məhz belədir. Fransanın Ermənistana açıq-aşkar havadarlıq etməsi 30 il həllini tapmayan keçmiş Dağlıq Qarabağ münaqişəsinin və 44 günlük müharibədən, 23 saatlıq antiterror tədbirlərindən sonra yaranan reallıqların fonunda daha qabarıq şəkildə nəzərə çarpır. Fransa bütün siyasi etiket qaydalarını pozmaqla, heç nəyi gizlətmədən açıq-aşkar anti-Azərbaycan siyasəti həyata keçirir. Müharibədən əvvəlki dönəmi yada salaq. Bu ölkə onilliklər ərzində Ermənistanın işğalçılıq siyasətinə görə yaranan keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı artıq de-fakto ölü quruma çevrilmiş ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən biri statusuna malik olub. Ancaq Yelisey Sarayı vasitəçilik missiyasını işğalçı Ermənistana havadarlıq etməkdə görürdü. Xatırlayırıq ki, Minsk qrupunun egidası altında aparılan danışıqlar prosesində Fransa daim anlaşılmaz, absurd yanaşmalar ortaya qoymaqla prosesləri dalana istiqamətləndirib və işğal məhsulu olan keçmiş statuskvonun ömrünü uzatmağa çalışıb.

Azərbaycanın 2020-ci il sentyabrın 27-də Ermənistan tərəfindən əl atılan növbəti təxribatının qarşısını almaq məqsədilə başladığı genişmiqyaslı əks-hücum əməliyyatları Yelisey Sarayında görünməmiş bir qəzəblə qarşılandı. Müharibə günlərində E.Makron tez-tez Azərbaycan Prezidentinə telefon açaraq döyüşlərin dayandırılmasını istəyirdi. O, unudurdu ki, Azərbaycan güclü dövlətdir və heç kimin diktəsi ilə oturub durmur. Prezident İlham Əliyev Makrona anladırdı ki, Azərbaycan qonşu dövlətin ərazisində deyil, öz torpaqlarında işğalçılara qarşı müharibə aparır və bu onun haqqıdır.

Sanki Ermənistanı qorumağa vəkil edilmiş Fransa Azərbaycana qarşı aqressiyasını 44 günlük müharibədən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra daha da artırıb. Fransanın postmüharibə mərhələsində düz 5 dəfə BMT TŞ-də Azərbaycana qarşı qətnamələr qəbul edilməsi ilə bağlı məsələni gündəmə gətirməsi, həmçinin bu ölkənin Senatının bir neçə dəfə respublikamızın əleyhinə qətnamə qəbul etməsi Makron iqtidarının qərəzçiliyinin ifadəsidir. Fransa parlamentinin Avropa İttifaqı məkanının enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verən Azərbaycana qarşı sanksiyalar tətbiq olunmasına çağırışlar etməsinin məntiqi əsla başa düşülmür. Belə çıxır ki, Fransa kiçik Ermənistan naminə böyük Avropanın maraqlarını ayaqlar altına atmağa da hazırdır. Şübhə yoxdur ki, parlamentdə Azərbaycanla bağlı qəbul olunan qərəzli qətnamələrin, sanksiya çağırışlarının siyasi sifarişləri məhz Yelisey Sarayından, şəxsən Makrondan gəlir.

Daha bir məqama diqqət çəkək. Fransa postmüharibə mərhələsində də Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində vasitəçilik etmək istəyini ortaya qoyur. Ancaq açıq-aşkar Ermənistanın tərəfini saxlayan, bu ölkəyə öldürücü silahlar tədarük edən, burada revanşizmi alovlandıran, Azərbaycana münasibətdə qərəz nümayiş etdirən bir ölkə hansı haqla vasitəçi ola bilər? Yeri gəlmişkən, məhz Fransanın manipulyasiyaları və qərəzçiliyi ucbatından Brüssel formatı iflasa uğradı. Azərbaycan haqlı olaraq Brüssel formatında Makronun iştirakı ilə keçirilən tədbirlərə qatılmaqdan imtina edir. Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi, Fransa regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış edir. Məğlub Ermənistanı yeni müharibəyə təhrik edən, regionda faktiki olaraq militarizasiya siyasəti aparan Fransa ona olan inamı son damlasınadək itirib. İndiyədək Yelisey Sarayının Azərbaycana qarşı bütün qərəzli həmlələri iflasa uğrayıb. Bu fiaskolar Makronun real və praqmatik siyasətdən uzaq, təsadüfi və populist biri olduğu qənaətini daha da möhkəmləndirir. Makron anlamalıdır ki, Azərbaycan öz siyasətində sırf suverenlik, müstəqillik prinsiplərindən çıxış edir və beynəlxalq hüquqa əsaslanır. Ölkəmizin mövqeyini gücləndirən də məhz budur!

### Yelisey Sarayının üzqarası - separatçılara göstərilən dəstək

Afrikada, dənizaşırı ərazilərdə sümürmə siyasətini daha eybəcər formada davam etdirməsi Fransa üçün çox doğru olaraq üzqarası hesab edilir. XXI əsir innovativ inkişaf, Dördüncü sənaye inqilabı əsridir. Yer üzündə sivilizasiyanın yeni mərhələyə yüksəldiyi indiki dönəmdə keçmişin eybəcər qalığına - humanizm normaları və beynəlxalq hüquqla bir araya sığmayan müstəmləkəçiliyə sadiq qalması Fransa üçün utanverici bir məqamdır. Qarabağdakı artıq ləğv edilmiş separatçı rejimin qaçıb Ermənistanda gizlənən və yaxud hazırda Bakıda həbsdə saxlanılan təmsilçilərinə dəstək göstərməsi, bütövlükdə, separatizmi yenidən alovlandırmağa çalışması Yelisey Sarayının başqa bir üzqarasıdır. Beynəlxalq hüquq deyir ki, dünyada separatizmə yer yoxdur. Ölkələrin suverenliyi və ərazi bütövlüyü toxunulmazdır. Makron iqtidarı isə beynəlxalq hüquqa məhəl qoymadan separatçıları dəstəkləməkdə və onları revanşizmə həvəsləndirməkdə davam edir.

Sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri ərəfəsində Fransa rəsmilərinin separatçılara münasibətdə nümayiş etdirdikləri canıyananlıq yaddaşlardan silinməyib.



Rəsmi Paris Azərbaycan - Ermənistan sərhəddində sözün əsl mənasında siyasi şou sərgiləyirdi. Burada bir neçə TIR-dan ibarət "humanitar yardım" karvanı düzülmüşdü. Hətta Parisin xanım meri uzaq yolu yaxın edərək sərhədə təşrif gətirmişdi. O, yenə də beynəlxalq hüquqa məhəl qoymadan və Azərbaycanın icazəsini almadan Xankəndiyə separatçıların ziyarətinə getmək istəyirdi. Budurmu Fransada qanunun aliliyi və yaxud suverenlik prinsiplərinə hörmət? Təbii ki, Azərbaycan onun sərhədi keçməsinə icazə vermədi və xanım mer geri qayıtmaq məcburiyyətində qaldı

Aradan bir il vaxt ötüb. Artıq Qarabağda separatçı rejim yoxdur. Separatçıların özləri qondarma qurumun buraxılması ilə bağlı sənəd imzalayıblar. Erməni əhaliyə gəldikdə isə, onlar könüllü şəkildə Azərbaycan ərazisini tərk edərək Ermənistana köçüblər. Fota və video materiallardan da göründüyü kimi, onlara heç bir təzyiq göstərilməyib. Azərbaycandan çıxan ermənilərə hətta ev əşyalarını, mal-heyvan sürülərini aparmalarına da şərait yaradılıb. Burada hansısa bir diskriminasiyadan söhbət gedə bilməz. Hazırda Ermənistan rəhbərliyinin özü də ermənilərin Qarabağdan köç etmələri mövzusunda Azərbaycanın ünvanına hansısa bir irad səsləndirmir. Di gəl ki, erməni lobbisinin təsiri altında olan Makron və onun komandasına yığdığı nazirlər ermənilərdən artıq ermənilik edərək separatçı rejimlə bağlı vay-şivənlərini səngitmək istəmirlər. Ölü rejimin reabilitasiyasına çalışan Fransa hakimiyyəti lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycanı könüllü tərk etmiş ermənilərə dəfələrlə yardımlar göndərib, maliyyə vəsaitləri ayırıb. İrəvana təşrif gətirən xarici işlər naziri Stefan Sejurne də əliboş gəlməyib. O, Ermənistana 29 milyon dollar yardım ayrılacağını deyib. Nazirin sözlərinə görə, bu vəsait Azərbaycan ərazilərini könüllü tərk etmiş ermənilər üçün nəzərdə tutulub.



### Separatçıların daha bir himayədarı - bədnam Luis Okampo

Qeyd etdiyimiz kimi, Fransanın xarici işlər naziri ilə yanaşı, erməni lobbisinin buyruq qulu olan Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okampo da İrəvana təşrif gətirib. Əvvəlcə onu qeyd edək ki, L.Okampo Avropada hüquq müdafiəçisindən daha çox dələduzluq edən, ofşorlada şübhəli biznes şəbəkəsi quran, özünün və ailəsinin adı çoxsaylı vergi cinayətlərindən, müxəlif qalmaqallardan keçən bədnam birisi kimi tanınır. Xarakterindəki bu kimi mənfi keyfiyyətlər onu erməni lobbisinə yaxınlaşdırıb. Pul, külli miqdarda rüşvət üzərində qurulan bu çirkin əməkdaşlıq illərdir ki, davam edir. Erməni lobbisindən külli miqdarda vəsaitlər alan Okampo beynəlxalq hüququ alver predmetinə çevirib. O, erməni lobbisindən pul qarşılığında aldığı sifarişlərə çox asanlıqla hüquqi don biçir .

Xarici işlər naziri kimi, bədnam hüquqşünas da İrəvanda ermənilərə ayrı-ayrı mövzularda çox məsləhətlər verib. Onun əsas müzakirə mövzusu isə Qarabağdan könüllü çıxan ermənilərin geri qaytarılması və hazırda Bakıda həbsdə olan separatçıların azadlığa çıxarılması ilə bağlı olub. Keçmiş prokuror hər iki mövzuda özünün "yol xəritəsini" təqdim edib.

Belə demək mümkündürsə, o, indiyədək bəlli mövzuda yenə də erməni lobbisinin təsiri altında olan Avropa təsisiatlarında apardığı "mübarizəni" indi də İrəvana daşıyıb. O, "erməni hərbi əsirlər" adlandırdığı şəxslərin sərbəst buraxılması üçün Azərbaycana təzyiq göstərməyin mümkün yollarından danışıb. Beynəlxalq hüququn bir daha manipulyasiya predmetinə çevrildiyi ortadadır. Bəhs olunan separatçılar mülki insanlara qarşı ağır terror aktlarına rəvac verdiklərinə, dövləti cinayət törətdiklərinə və bu kimi digər hüquqpozmalara görə ittiham olunurlar. Onların barəsində aparılan istintaq tamamlanaraq iş məhkəməyə göndərilib və məhkəmə də ədalətli qərarını verəcək. Burada okampoların , sejurnelərin boğazdanyuxarı canıyananlığına hər hansı bir lüzum yoxdur və bu kimi təzyiq vasitələri ilə Azərbaycan dövlətinə əsla təsir göstərmək mümkün deyil.

### Ermənistanı Rusiyanın orbitindən çıxarmaq illüziyası

Fransanın xarici siyasət idarəsinin rəhbərinin İrəvanda səsləndirdiyi bəyanatdan aydın olur ki, Yelisey Sarayı Ermənistanın Rusiyanın orbitindən çıxarılması siyasətinə sadiqdir. Nazir bildirib ki, ölkəsi Ermənistanı Rusiyanın təzyiqlərindən qorumağa çalışacaq. XİN rəhbəri onu da qeyd edib ki, Fransa və Ermənistan müdafiə sahəsində əməkdaşlıq edəcək. Ardınca bildirib ki, Rusiyanın açıq hədələri və düşmənçiliyinə baxmayaraq, Ermənistan hökumətinə və xalqına dəstək davam edəcək.

Fransalı nazirin İravanda ifadə etdiyi fikirlərə istinadən deyə bilərik ki, Fransa Ermənistanı növbəti fəlakətə sürükləyir. Əvvəla, Ermənistanı Rusiyanın orbitindən çıxarmaq elə də asan məsələ deyil. Görünür, Makron başda olmaqla Fransa rəsmiləri Cənubi Qafqaz coğrafiyasının reallıqlarını, o cümlədən də Rusiya-Ermənistan münasibətlərinin təfərrüatlarını yaxşı analiz etməyiblər. Əks təqdirdə onlar belə bir illüziyaya qapılmazdılar. Rusiyanın keçmiş İttifaq respublikalarının heç birində olmadığı qədər Ermənistanda güclü təsir imkanları var. Ermənistanın iqtisadiyyatının bütünlüklə şimal qonşumuzun inhisarında olduğu fikrini əminliklə söyləyə bilərik. Görəsən, Fransa Rusiyanın Ermənistanı ucuz enerji daşıyıcıları ilə təchiz etməsini nə ilə əvəzləyəcək? Ermənistanda Moskvanın hərbi mövcudluğu var, bu ölkənin Türkiyə və İranla sərhədlərini Rusiya hərbçiləri qoruyurlar. Ermənistandakı yeganə atom elektrik stansiyası Rusiya texnologiyası ilə qurulub və s. Fransanın bütün bunları qısa müddətdə əvəzləməyə gücü və iradəsi çatacaqmı? Yelisey Sarayı üçün cavabı olmayan bir sualdır.

Burada diqqəti çəkən başqa bir məqam da var. Fransalı nazirin İrəvan səfərinin ardından Moldovaya gedəcəyi anons edilib. Bu postsovet ölkəsinin də Rusiya ilə münasibətlərində gərginlik yaşanır. Nazir səsləndirdiyi bəyanatda Moldova və Ermənistanın demokratiya və müstəqillik yolunda irəlilədiklərini, hər iki ölkənin Avropaya doğru addımlamaq istiqamətində təzyiqlərlə üzləşdiklərini xüsusi vurğulayıb. Qərbin postsovet ölkələrini Avropaya çəkmək cəhdlərinin ağır fəsadlara gətirib çıxardığını Gürcüstanın və Ukraynanın timsalında izləmişik. Belə qənaət hasil olur ki, növbəti fəlakət ünvanı Ermənistan və Moldova ola bilər...

Burada Stefan Sejurnenin İrəvana səfər üçün sentyabr ayını seçməsi də diqqətdən kənarda qalmır. 2020-ci ilin sentyabrında başlayan müharibənin və 2023-cü ilin sentyabrında başlayan lokal xarakterli antiterror tədbirlərinin nəticələri Ermənistan üçün fəlakət oldu. Fransalı nazirin sentyabrda İrəvana səfər etməsi Ermənistan üçün növbəti fəlakətin anonsu deyil ki?

***Mübariz ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Qara qandan qaranlığa işıq saçanlar...




Zəngin neft və qaz sərvətlərinə malik olan Azərbaycan bütün dünyada “Neft diyarı”, “Odlar ölkəsi” kimi tanınır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurmuş və bu hadisə dünyada neftin sənaye üsulu ilə çıxarılmasının başlanması kimi tarixə həkk olunmuşdur.

XX əsrdə neft sənayesi sürətlə inkişaf edib, ölkəmizdə güclü istehsal bazaları və elmi mərkəzlər yaradılıb. Azərbaycan İkinci dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verməklə cəbhəni yanacaqla təmin edərək alman faşizminin məğlubiyyətə uğradılmasında böyük rol oynayıb. Elə bunun nəticəsidir ki, Azərbaycan daim istər qonşu, istərsə də digər ölkələrin diqqət mərkəzində olub, zaman-zaman müxtəlif güclər onun bu təbii sərvətini mənimsəmək istəyiblər. Hətta Böyük Vətən müharibəsində Hitler Almaniyasının da ilkin hədəfi Bakı nefti olub. Lakin əzmkar və zəhmətkeş Bakı neftçiləri ölkəmizin iqtisadi gücünün əsas hissəsini təşkil edən bu “qara qızıl”ı öz zəhmətləri hesabına xalqımıza, dövlətimizə bəxş etməklə yanaşı, onu qorumağı da yaxşı biliblər.

Keçmiş Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında Azərbaycanın qüdrətli elmi-texniki potensialının mühüm yeri olub. Təsadüfi deyildir ki, Rusiyanın neft regionları “İkinci Bakı”, “Üçüncü Bakı” kimi adlandırılırdı.

Fədakar neftçilərimizin gərgin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. Bunun nəticəsidir ki, hər il ölkəmizdə neft işçilərinin dövlət səviyyəsində qeyd edildiyi bayram günü var.

20 sentyabr ölkəmizdə neft-qaz sahəsində çalışan işçilərin peşə bayramı - Neftçilər günü kimi qeyd olunur.

Məhz həmin günün bu sektorda çalışanların peşə bayramı kimi qeyd edilməsi isə 1994-cü il sentyabrın 20-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri” və “Çıraq” yataqları, eləcə də “Günəşli” yatağının dərinsulu hissəsinin (AÇG) birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında müqavilənin imzalanması ilə bağlıdır.

Təxminən, 400 səhifə həcmində və 4 dildə hazırlanmış müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adını alıb. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da “Yeni neft strategiyası” və doktrinası uğurla həyata keçirilməyə başlandı.

20 sentyabr 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakıda, “Respublika” sarayında “Əsrin müqaviləsi”nin imzalanmasının birinci ildönümü münasibətilə neft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüş keçirilib.

Bu görüşdən sonra hər il 20 sentyabrda Azərbaycan Prezidenti Heydər Əliyevin neft-qaz sənayesi kollektivləri ilə görüşləri mütəmadi xarakter alıb.

Nəhayət, Ümummilli Lider Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli fərmanı ilə 20 sentyabrın hər il Azərbaycanda “Neftçilər günü” peşə bayramı kimi qeyd edilməsi rəsmiləşdirilib.

Qeyd edilən tarix Azərbaycanda 1999-cu və 2004-cü ildə, yəni “Əsrin müqaviləsi”nin imzalanmasının beşinci və onuncu ildönümündə rəsmi səviyyədə bayram kimi qeyd edilib. “Neftçilər günü”ndə adətən sənayenin bu sahəsində əldə edilən uğurlar və qarşıda duran əsas məsələlər müzakirə edilir. Həmin gün bu sahədə xüsusi xidmətlər və fədakarlıq göstərən fəhlə və mütəxəssislərə dövlət başçısının fərman və sərəncamları ilə fəxri adlar, orden və medallar verilir.

Təsadüfi deyil ki, dövlətimizin başçısı, cənab Prezident İlham Əliyevin başçılığı ilə “neft ölkəsi” Azərbaycanımızda hər keçən gün bu sahənin sürətlə inkişafının şahidi oluruq. Artıq ölkəmiz dünyanın demək olar ki, bir çox nəhəng ölkələri ilə neft sektorunun inkişafına, dünyaya ixracına yönəlmiş müqavilələr, sazişlər imzalayıb.

Fədakar, zəhmətkeş neftçilərimiz isə durmadan ana torpağın dərinliklərindən qara qızılı gün üzünə çıxarmaqla ölkəmizin inkişafına öz töhfələrini verməkdə davam edirlər.

Əziz neftçilərimizi peşə bayramı münasibəti ilə təbrik edirik. Biz daim sizinlə fəxr edirik!

Bayramınız mübarək!

***Şahanə MÜŞFİQ***

# Van Qoqun məşhur tablosunda elmi kəşf aşkarlanıb

Vinsent Van Qoqun məşhur “Ulduzlu gecə” tablosu fırlanan mavi səması və parlaq sarı ulduzları əks etdirir, onun canlı rəngləri və dinamik fırça çalarları insanı valeh edir. Rəsm gecə səmasının heyrətamiz təsviridir; hər bir ulduz parlaq dalğalarla əhatə olunub, sanki səmanın özü hərəkətdədir.

AZƏRTAC xarici mətbuata istinadla xəbər verir ki, “Ulduzlu gecə” tablosundakı hərəkət illüziyası o qədər canlıdır ki, Van Qoqun təsvirinin atmosfer turbulentliyinin əsl fizikasını nə dərəcədə dəqiq əks etdirdiyi ilə maraqlanan çinli alimlərin marağına səbəb olub.

Rəsmdə səmanın hərəkətini ölçmək mümkün olmasa da, Van Qoqun xarakterik fırça çalarlarını elmi əsaslarla təhlil etmək olar. “Physics of Fluids” jurnalında dərc olunan araşdırmada Çin və Fransadan olan dəniz və maye dinamikası alimləri rəsmdə “gizli turbulentlik” adlandırdıqları cəhəti aşkar etmək üçün Van Qoqun əsərinin detallarını təhlil ediblər.



Alimlər Van Qoqun “Ulduzlu gecə” tablosundakı burulğanların fiziki xüsusiyyətlərini araşdırıb və onların maye dinamikasının məlum prinsiplərinə uyğun olub-olmadığını müəyyən etməyə çalışıblar. Siamen Universitetinin alimi Yonqsianq Huanq bildirib: “Rəng çalarlarının miqyası bu tədqiqatda həlledici rol oynadı. Yüksək keyfiyyətə malik rəqəmsal texnologiyadan istifadə edərək, biz ləkələrin tipik ölçüsünü dəqiq ölçə və onları turbulentlik nəzəriyyəsinin proqnozlaşdırdığı balans ilə müqayisə edə bildik”.

Tədqiqatçılar Van Qoqun fırlanan fırça çalarlarından bir model kimi istifadə ediblər. Onlar qasırğada fırlanan yarpaqları seyr edərək külək nümunələrini öyrənirlər. Komanda atmosfer turbulentliyində mövcud olan kinetik enerjini təmsil etmək üçün rəsmdə işıqdan və ya rənglərin nisbi parlaqlığından istifadəni araşdırıb. Parlaqlığın kətan boyunca yayılması onlara Van Qoqun fırça çalarları ilə real atmosfer sistemlərində enerji axını arasında paralellər aparmağa imkan verib.

“Bu, təbiət hadisələrinin dərin və intuitiv anlayışını nümayiş etdirir. Van Qoqun turbulentliyi dəqiq təsvir etməsi buludların və atmosferin hərəkətinin öyrənilməsinin nəticəsi ola və ya səmanın dinamizmini necə çatdırmaq barədə fitri hissi əks etdirə bilər”, - deyə çinli alim vurğulayıb.

Təhlil göstərib ki, “Ulduzlu gecə” tablosunun detalları həqiqətən də Kolmoqorovun nəzəriyyəsinə uyğun gəlir (turbulent atmosfer sistemlərində kinetik enerjinin böyükdən kiçik miqyaslara necə keçdiyini təsvir edən nəzəriyyə - red). Bu, mühüm kəşfdir, çünki Van Qoqun fırlanan gecə səmasının atmosferin hərəkətini idarə edən eyni qaydalara əməl etdiyini göstərir.





## Azercell Biznes-in yeni “İnfoHUB” xidməti ilə biznesinizin məlumat bazası və cavablarınız bir mərkəzdə!

Lider mobil operator “Tez-tez yaranan suallar”ın cavablandırılması üçün yeni həll təqdim edir

Müştəri xidmətləri sahəsində geniş təcrübəyə malik olan “Azercell Telekom” MMC tərəfdaşlarının müştəri məmnuniyyətinin artırılmasına yönəlik yeni “İnfoHUB” həllini təqdim edir. Bu daxili platforma şirkətlərin məlumat bazasını mərkəzləşdirərək müştəri xidmətlərinin səmərəliliyini artırmaq və sorğuların cavablandırma müddətini minimuma endirmək imkanı yaradır.

- Müraciətlərin operativ cavablandırılması: yeni həll məsul işçilərin lazımi məlumatlara, yenilənmələrə və prosedurlara mərkəzləşdirilmiş çıxışını təmin edir. Nəticədə, telefon mərkəzinə və ya müştəri xidmətlərinə daxil olan müraciətlər daha sürətli və dəqiq cavablandırılır, əməliyyat yükü azalır və ümumi məhsuldarlıq artır.

- Mərkəzləşdirilmiş axtarış funksiyası: “InfoHUB”-ın əsas üstünlüyündən biri də platformada yerləşdirilən yeni məhsul və xidmətlər haqqında məlumatların, təlimatların real vaxt rejimində əlçatan olmasıdır. Platformanın rahat axtarış xüsusiyyəti ilə lazımi məlumatların tez bir zamanda əldə edilməsi mümkündür.

- Məlumat təhlükəsizliyi: plartformada şirkət məlumatlarının məxfiliyi və təhlükəsizliyinin qorunması təmin edilir.

“InfoHub” xüsusilə böyük müştəri bazasına malik şirkətlər üçün ideal dəstək vasitəsidir.

Qeyd edək ki, Azercell xidmət istifadəçilərinə abunəlik müddəti boyunca texniki dəstəyin göstərilməsini də təmin edəcək.


*İdman*

## Misli Premyer Liqası: “Qarabağ” - “Neftçi” görüşü FIFA referisinə tapşırılıb

Misli Premyer Liqasının VII turunda keçiriləcək oyunlara hakim təyinatları açıqlanıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, “Kəpəz” və “Şamaxı” komandaları arasında baş tutacaq açılış matçı Cavid Cəlilova həvalə olunub.

Turun mərkəzi qarşılaşması olan “Zirə”- “Qarabağ” görüşü isə FIFA referisi Əliyar Ağayevə tapşırılıb.

20 sentyabr

17:00. “Kəpəz” - “Şamaxı”

Hakimlər: Cavid Cəlilov, Müslüm Əliyev, Kamran Bayramov, Nicat İsmayıllı.

VAR: Rauf Cabarov.

AVAR: Vüsal Məmmədov.

Hakim-inspektor: Asim Xudiyev.

AFFA nümayəndəsi: Bəhram Qurbanov.



Tovuz şəhər stadionu

20:00. “Qarabağ” - “Neftçi”

Hakimlər: Əliyar Ağayev, Zeynal Zeynalov, Akif Əmirəli, Əli Əliyev.

VAR: İnqilab Məmmədov.

AVAR: Namik Hüseynov.

Hakim-inspektor: Ramil Diniyev.

AFFA nümayəndəsi: Zaur Hacı-Məhərrəmov.

Azərsun Arena

21 sentyabr

18:00. “Turan Tovuz” - “Araz-Naxçıvan”

Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Pərvin Talıbov, Tural Qurbanov.

VAR: Rauf Allahverdiyev.

AVAR: Rəhman İmami.

Hakim-inspektor: Babək Quliyev.

AFFA nümayəndəsi: Elçin Mehdiyev.

Tovuz şəhər stadionu

22 sentyabr

18:00. “Səbail” - “Sabah”

Hakimlər: Kamal Umudlu, Vüsal Məmmədov, Eyyub İbrahimov, Kamran Əliyev.

VAR: Fərid Hacıyev.

AVAR: Şirmamed Mamedov.

Hakim-inspektor: Rəhim Həsənov.

AFFA nümayəndəsi: Elçin Məmmədov.

ASCO Arena

20:30. “Sumqayıt” - “Zirə”

Hakimlər: İnqilab Məmmədov, Namik Hüseynov, Rahil Ramazanov, Əkbər Əhmədov.

VAR: Rəşad Əhmədov.

AVAR: Teymur Teymurov.

Hakim-inspektor: Orxan Məmmədov.

AFFA nümayəndəsi: Elgiz Abbasov.

Mehdi Hüseynzadə adına stadion.

## FIFA reytinqi: Azərbaycan millisinin yeni mövqeyi bəlli olub



FIFA milli komandaların sentyabr ayına olan reytinq cədvəlini açıqlayıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, Fernandu Santuşun baş məşqçisi olduğu Azərbaycan yığması iki pillə geriləyib.

Aktivində 1173,15 xalı olan kollektiv 113-cü sırada qərarlaşıb.

## Bakıda “Sağlam həyat” səyyar layihəsinin təqdimatı keçirilib

Bakıda yeni üslubda təşkil olunan “Sağlam həyat” səyyar layihəsinin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Tofiq Bəhramov adına Respublika Stadionunun qarşısında reallaşan layihə iştirakçılar tərəfindən maraqla qarşılanıb.

İdman həvəskarları, xüsusən də gənclər layihəyə qoşularaq əyləncəli vaxt keçiriblər. Onlar, həmçinin müxtəlif idman növlərində - voleybol, basketbol, stolüstü tennis, şahmat, badminton, velosiped, boks avadanlıqlarında öz qüvvələrini sınayıblar. Bu avadanlıqların hər biri ilk dəfə sentyabrın 15-də istifadəyə verilən “Sağlam həyat” avtomobilində yerləşib.



Gənclər və İdman Nazirliyinin Regionlar İş Sektorunun müdiri Elvin Zeynallı bildirib ki, layihənin əsas məqsədi sağlam həyat tərzini təbliğ etməkdir: “Bu, Gənclər və İdman Nazirliyinin əsas istiqamətlərindən biridir. Bu il nazirlik regionlarda 897 kütləvi bədən tərbiyəsi tədbiri həyata keçirib. Bizim indiyə kimi 8 “Sağlam həyat” layihəmiz olub. Bunlardan biri də işğaldan azad olunmuş Laçın şəhərində təşkil olunub”.

O, səyyar maşınının regionlarda təşkil olunacaq “Sağlam həyat” layihəsində istifadə olunacağını söyləyib: “Avtomobilin ikinci mərtəbəsində ofis yerləşir və bir sıra idman növlərinin inventarları ilə təchiz olunub. Sentyabrın 15-də Formula 1 Azərbaycan Qran-Prisi zamanı biz bu avtomobili test etdik və gördük ki, minə yaxın insan layihəmizdə iştirak edir. Layihə turistlərin də böyük marağına səbəb oldu. Bütün regionlarda “Sağlam həyat” səyyar layihəsini reallaşdırmaq istəyirik. Avtomobil əhalinin sıx məskunlaşdığı əraziyə gedəcək. Hələlik bir avtomobilimiz var. Əgər bu, daha çox insanın diqqətini cəlb etsə, biz avtomobilin sayını artıra bilərik”.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4964**
**Sifariş: 214**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI